QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 024 (5744) **6 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

## İlham Əliyev: "Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur"

*Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb*



Səh 2

"Formula 1-in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir"



2

Əli Əhmədov: 2020-ci ildən icbari tibbi sığorta ölkə miqyasında tətbiq ediləcək



3

Şəhid anası: "Apardığı uğurlu siyasətdə hamımız Prezidentə dəstək olmalıyıq"



3

Yeni Azərbaycan Partiyasında gənclərlə görüş keçirilib



4

Siyavuş Novruzov: "Ehtiyatımızı əldən verməməliyik, bilirik ki, qonşumuz kimdir"



5

"Qloballaşan dünya və müasir Azərbaycan gəncliyi"



8

10

4 ildən sonra regionlarımız necə olacaq?



11

Qanunsuz aksiyaların təşkili üçün yollanan pullar və Əli Kərimli...



12

Erməni rejissor ölüm aclığına başlayacağını anons etdi



# İlham Əliyev: “Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur”

*Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kirilli qarşılayıb. Sonra dövlətimizin başçısı Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə söhbət edib. Azərbaycan Prezidenti İlham Əliyev:***

-Zati aliləri, Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Mən Sizi yenidən görməyimə çox şadam. Fürsətdən istifadə edərək, ilk növbədə, Sizi patriarx tacqoyma mərasiminin 10 illiyi münasibətilə təbrik etmək istərdim. Mənə çox xoşdur ki, Siz bu əlamətdar hadisədən az sonra bizim ölkəmizə səfər etmisiniz. Biz bunu Azərbaycana hörmət əlaməti hesab edirik. Həmçinin Sizə demək istəyirəm ki, Azərbaycanda Sizə, Sizin fəaliyyətinizə böyük hörmətlə yanaşırlar. Sizi Azərbaycanda tanıyırlar. Siz ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizə dərin hörmət bəsləyirlər. Dünyada təhlükəsizliyin, əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi işində Sizin rolunuz bütün dünyada, o cümlədən bizim ölkəmizdə çox yüksək qiymətləndirilir. Siz dinlərarası dialoqun, müxtəlif konfessiyaların, müxtəlif millətlərin, ölkələrin nümayəndələri arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsi işində çox mühüm rol oynayırsınız. Biz də Azərbaycanda Sizin işlərinizi, sözlərinizi çox diqqətlə izləyirik. Əlbəttə, bir daha qeyd etmək istərdim ki, Sizin bütün fəaliyyətiniz öz xalqınıza xidmət işinə yönəlib. Həmçinin qeyd etmək istərdim ki, Sizin sözləriniz, dərin biliklərə, prinsipial mövqeyə əsaslanan müdrik sözləriniz gənclərin ənənəvi dəyərlər ruhunda tərbiyə edilməsində çox mühüm rol oynayır. Əlbəttə, bizim üçün çox xoşdur ki, Siz bizim ölkəyə çox xeyirxah münasibət bəsləyirsiniz. Artıq qeyd etdiyim kimi, Siz ilk dəfə deyil ki, Azərbaycana gəlirsiniz və Sizin budəfəki səfəriniz də münasibətlərimizin - həm dinlərarası əməkdaşlıq sahəsində, həm də bütövlükdə çox uğurla və dinamik inkişaf edən Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsi işinə xidmət edəcək. Bizdə qarşılıqlı etimad səviyyəsi prezidentlərdən başlamış adi vətəndaşlara qədər bütün səviyyələrdə çox yüksəkdir. Demək istərdim ki, keçən il rekord sayda - 900 minə yaxın rusiyalı Azərbaycana səfər edib. Bu, onu göstərir ki, insanlar və ölkələr arasında münasibətlər ən yüksək səviyyədədir. Ona görə ki, onlar özlərini evdəki kimi hiss edir, buraya yaxşı niyyətlərlə gəlir və burada onlara doğma münasibət bəsləyirlər.

Həmçinin qeyd etmək istərdim ki, keçən il Rusiya və Azərbaycan prezidentləri arasında altı görüş olub. Düşünürəm ki, bu da bizim münasibətlərimizin mahiyyətini və xarakterini, yaxınlığımızı əks etdirən rekord göstəricidir. Əlbəttə, Vladimir Vladimiroviçin Azərbaycana səfəri və mənim Rusiyaya səfərim bizim münasibətlərimizin daha da möhkəmlənməsi işində çox mühüm rol oynayıb. Düşünürəm ki, bizim münasibətlərimiz qonşular arasında münasibətlərə nümunə ola bilər. Bizi tarixi baxımdan bağlayan səbəblər çoxdur və bu gün - biz bütün istiqamətlərdə fəal qarşılıqlı əlaqə saxladığımız bir vaxtda bu əməkdaşlıq, əlbəttə, bizim regionda, Qafqazda sülhün möhkəmlənməsi işində xüsusi əhəmiyyət kəsb edir. Buna görə də biz dövlətlərarası münasibətlərin bütün palitrasına nəzər salanda, əlbəttə, müsbət dinamika görürük. Bu baxımdan, Sizin bugünkü səfəriniz xüsusi rol oynayır.



Ölkəmizə səfər etdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək və nəcib işimizdə uğurlar arzu etmək istərdim.

x x x

Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill:

-Çox hörmətli cənab Prezident, mən Sizinlə görüşmək imkanına görə təşəkkür edirəm. Azərbaycana səfər mənim üçün hər zaman mühüm mənəvi-mədəni hadisədir. Zəngin və qədim tarixi olan, mürəkkəb sivilizasiya qovuşuğunda yerləşən ölkəniz həm ətraf xalqların müdrikliyini, həm də əlbəttə ki, özünün sadə olmayan, amma şübhəsiz, xalqı gözəl mədəniyyət və mənəviyyatla zənginləşdirən tarixi təcrübəsini əxz edib. Mən Azərbaycana səfər edərkən həmişə dinlərarası münasibətlərin yüksək səviyyəsinə diqqət yetirirəm. Həm də bu münasibətlər yalnız hansısa rəsmi səviyyədə göstərici deyil. Bütün bunlar sadə insanların həyatına birbaşa aiddir. Azərbaycandakı pravoslavlar da müsəlman əksəriyyəti kimi bütün imkanlardan istifadə edirlər. O cümlədən Azərbaycanda millətlərarası, dinlərarası sülhün möhkəmlənməsində həm də çox müsbət işlər görən dostum şeyxülislam Paşazadənin rolunu xüsusi qeyd etmək istərdim. O, həm də şübhəsiz rus kilsəsi ilə təkcə Azərbaycanın müsəlmanları ilə deyil, həm də Qafqazın ali dini rəhbəri olduğuna görə Rusiya müsəlmanları ilə münasibətlərin inkişafında böyük işlər görür. Biz də onun sülhməramlı rolunu, həm də dinlərarası münasibətlər sahəsində mürəkkəb məsələləri həll etmək bacarığını çox yüksək qiymətləndiririk.

Azərbaycanda pravoslav kilsəsinin vəziyyəti ilə əlaqədar Sizə xüsusilə təşəkkür etmək istərdim. Həmişə zati-müqəddəsləri Aleksandr ilə görüşəndə o, bu münasibətləri çox nikbin təsvir edir və mən dəqiq bilirəm ki, bu, reallıqdır və həqiqətən belədir. Azərbaycanda yaşayan pravoslavlar heç bir narahatlıq hiss etmirlər. Onlar öz ölkələrinin həm vicdanlı vətəndaşlarıdır, eyni zamanda, pravoslavdırlar. Onları həm dini əqidələrinə, həm də ənənəyə görə tarixi vətəni - Rusiya ilə bağlayan çox şey var.

Ölkələrimiz arasında münasibətlərin inkişafına Azərbaycan çox sanballı töhfələr verir. Sizin bu münasibətlərin inkişafına xoş məramınız, Sizin səmimiyyətiniz bizim xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Bir məqamı da vurğulamaq istərdim ki, bu gün Moskvada, ümumiyyətlə, Rusiyada sizin xalqınızın çoxsaylı övladları yaşayır. Onlar müasir Rusiyanın həyatında - həm biznes sahəsində, həm də mədəniyyət aləmində mühüm rol oynayırlar. Moskva şəhərinin müsəlman və pravoslav icmaları arasında münasibətlər də çox uğurlu və dinc şəkildə qurulur. Ulu Tanrıya şükür edirəm ki, çoxmillətli Rusiyada, ümumiyyətlə, hər hansı dinlərarası gərginlik yoxdur və bu, əlbəttə, çox cəhətdən pravoslavların dünya duyumu və onların başqa dinlərə münasibəti ilə şərtlənir. Lakin bu, həm də o cümlədən əslən Azərbaycandan olan müsəlmanların mövqeyi ilə bağlıdır. Başqa sözlə desək, bizim ölkələrimiz, xalqlarımız arasında münasibətlərdə müsbət cəhətlər çoxdur. Mən bu münasibətlərin inkişafını alqışlayıram. Hesab edirəm ki, bu münasibətlər çox cəhətdən həm Rusiya, həm Azərbaycan üçün, həm də xalqlarımız üçün vacibdir. Fikrimcə, bu münasibətlərin potensialı hələ tükənməyib. Sizi əmin etmək istəyirəm ki, Rus Pravoslav Kilsəsi tərəfindən mənim şəxsimdə, Rus Pravoslav Kilsəsinin iyerarxiyasının, o cümlədən Azərbaycandakı ruhanilərin şəxsində Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da inkişafına səmimi qəlbdən çalışan etibarlı tərəfdaşlarınız var.

Sizinlə bu gözəl görüş imkanına görə təşəkkür edirəm və bir daha vurğulamaq istəyirəm ki, Azərbaycanda baş verən bütün dəyişiklikləri görəndə sevinirəm. Biz Sizinlə bir neçə il bundan əvvəl burada görüşmüşdük və deməliyəm ki, Bakıya hətta ötəri nəzər salanda burada çox böyük dəyişikliklər baş verdiyi görünür. Bakı əla infrastruktura malik olan gözəl, çox gözəl şəhərə çevrilir. Burada çoxlu gözəl binalar ucaldılıb. Paytaxtdakı böyük dəyişikliklər münasibətilə Sizi təbrik etmək istərdim, lakin burada yaşayan xeyirxah dostlarımdan da eşitmişəm ki, müsbət dəyişikliklər təkcə paytaxtı yox, bütün ölkəni əhatə edir. Buna görə də Sizə Ulu Tanrıdan kömək, ruhani və cismani qüvvə, Azərbaycan xalqına firavanlıq diləmək istərdim.

Prezident İlham Əliyev: Çox sağ olun.

# “Formula 1-in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir”

*Prezident İlham Əliyev Formula 1 Qrupunun baş icraçı direktorunu qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri Azərbaycana növbəti səfərindən məmnunluğunu ifadə edərək bildirdi ki, Formula 1 çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşı yarış hesab edilib.

Dövlətimizin başçısı Bakıda keçirilən Formula 1 yarışına yüksək qiymətin verilməsindən məmnunluğunu ifadə etdi. Ölkəmizə gələn turistlərin sayının ildən-ilə sürətlə artdığını deyən Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda iki milyard dollardan çox vəsait xərclədiklərini qeyd etdi və bildirdi ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan Formula 1-in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Dövlətimizin başçısı qeyd etdi ki, bütün bunlar, öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır, eyni zamanda, dünyada daha çox insan Azərbaycan haqqında məlumat alır. Beləliklə, ölkəmizdə Formula 1 yarışlarının keçirilməsi həm Azərbaycanın dünyada təqdimatı, həm də eyni zamanda, iqtisadi mənfəət baxımından böyük əhəmiyyət daşıyır.



Çeyz Keri dövlətimizin başçısının fikirləri ilə tam şərik olduğunu vurğulayaraq qeyd etdi ki, bu yarışı izləmək üçün Bakıya gələn insanlar paytaxtımızda gördüklərini yüksək qiymətləndirir və Bakını çox sevdiklərini bildirirlər. Çeyz Keri bildirdi ki, Formula 1 yarışının Azərbaycanda keçirilməsi ölkəyə potensial turistlərin cəlb olunması ilə yanaşı, eyni zamanda, Bakının dünyada daha çox tanınması işinə də öz töhfəsini verir.

Görüşdə Bakıda təşkil edilən “İrimiqyaslı idman yarışlarının keçirilməsinin ölkəyə faydaları” adlı 3-cü beynəlxalq konfransın əhəmiyyətinə toxunuldu, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev E.R.Salahovun Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Elşən Rövşən oğlu Salahov Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında fəaliyyət göstərən ümumölkə teleradio yayımçılarının xarici ölkələrdə yayımının təşkilinə dövlət dəstəyi verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının şəhər və rayonlarında çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında Sərəncam imzalayıb.

## Əli Əhmədov: 2020-ci ildən icbari tibbi sığorta ölkə miqyasında tətbiq ediləcək




2020-ci ildən icbari tibbi sığorta ölkə miqyasında tətbiq ediləcək. Bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov jurnalistlərə deyib. /Trend/

Ə.Əhmədov bildirib ki, bu, hazırda Mingəçevir şəhəri, Ağdaş və Yevlax rayonlarında pilot layihə kimi icra edilir: "Pilot layihələrin nəticəsi göstərir ki, insanların buna çox böyük ehtiyacı var".

Baş nazirin müavini vurğulayıb ki, bu layihələr çərçivəsində müəyyən təcrübə əldə olunub:

"2019-cu il icbari tibbi sığortaya hazırlıq ili kimi qiymətləndirilə bilər. Qarşıda duran bir il ərzində bütün xəstəxanaların bu istiqamətdə hazırlanması ilə əlaqədar lazımi işlər aparılacaq. İnanıram ki, pilot layihələr zamanı toplanmış təcrübələr kifayət edir ki, bir il ərzində xəstəxanalar icbari tibbi sığorta üçün hazırlansınlar". Ə.Əhmədov hesab edir ki, Azərbaycanın icbari tibbi sığorta sahəsindəki təcrübəsi uğurlu olacaq və vətəndaşlar ehtiyac hiss etdikləri bu məsələdən də faydalanacaqlar.

## Məryəm Məcidova: Bu gün ölkə gəncliyi inkişaf edir və yaradılan böyük imkanlar yeni uğurlara yol açır

"Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə gənclərin inkişafı, onların asudə vaxtının səmərəli təşkili və beynəlxalq aləmə inteqrasiyası üçün hər cür şərait yaradılıb". Bu fikirləri Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova deyib.

M.Məcidova bildirib ki, Azərbaycan gəncliyi həmişə kreativ ideyaları ilə fərqlənir. Bu gün ölkə gəncliyi inkişaf edir və yaradılan böyük imkanlar yeni uğurlara yol açır.

"Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır. Ümummilli liderimiz Heydər Əliyev öz zəngin təcrübəsi, nüfuzu və dahilərə xas zəkası ilə gələcəyimiz üçün güclü əsaslar yaradıb. Azərbaycan 28 ildir ki, müstəqil dövlətdir. Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin bu il 25 ili tamam olur. 25 ildir ki, Azərbaycan gənci tarixi, milli və mədəni mənsubiyyətinin qorunması yolunda daha ciddi addımlar atmaqdadır. Biz beynəlxalq tribunalarda çıxış edərkən "Mən müstəqil Respublikanın vətəndaşıyam", - deyə özümüzü təqdim edirik. Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Dövlətimizin yürütdüyü xarici siyasət nəticəsində biz gənclər Azərbaycanın inkişafı və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırırıq. Əminliklə deyə bilərəm ki, bundan sonra da belə olacaq"-deyə, M.Məcidova qeyd edib.

## Fransada ümumi tətil başlayıb



Fransada 24 saatlıq ümumi tətil başlayıb. AZƏRTAC xəbər verir ki, tətil ölkənin 30-a qədər bölgəsini əhatə edir. Bir çox şəhərlərdə, aeroportlarda və ictimai nəqliyyat sistemində problemlər yaranıb.

Nümayişçilər əməkhaqqının artırılmasını və ədalətli vergi sisteminin qurulmasını tələb edirlər. Əyilməz Fransa Partiyası və "sarı jiletlər" etiraz aksiyaçıları da tətilə qoşulublar.

Parisdə nümayiş şəhər meriyasından başlayaraq Yelisey çölləri prospektinə qədər davam edəcək. Ölkədə 160 nümayiş nəzərdə tutulub. Sosial tələblərdən başqa, nümayişçilər "toplaşma azadlığını" da tələb edirlər. Nümayiş ölkədə "dağıdıcılara qarşı qanunun" səsə qoyulduğu günə təsadüf edir.



## Energetika naziri XXII Avrasiya İqtisadi Zirvəsində iştirak edəcək

Fevralın 6-7-də İstanbulda XXII Avrasiya İqtisadi Zirvəsi keçiriləcək. Energetika Nazirliyindən SİA-ya verilən məlumata görə, zirvədə Azərbaycan nümayəndə heyətinin tərkibində energetika naziri Pərviz Şahbazov da iştirak edəcək. Energetika nazirinin "Azərbaycanın enerji potensialı və rəqəmsal enerji" mövzusunda çıxışı nəzərdə tutulub.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə baş tutacaq toplantıda 40-a yaxın ölkənin yüksək səviyyəli hökumət nümayəndələri, sabiq prezidentlər, nazirlər, parlamentarilər, beynəlxalq təşkilatların təmsilçiləri, ictimai-siyasi xadimlər iştirak edəcək.

## Şəhid anası: "Apardığı uğurlu siyasətdə hamımız Prezidentə dəstək olmalıyıq"



Erməni quldurlarına qarşı gedən döyüşlərdə xalqımızın qeyrətli oğlanları silaha sarılaraq Vətən torpağının müdafiəsinə qalxdı. Onların arasında minlərlə döyüşçü bu yolda həyatını qurban verərək şəhidlik zirvəsinə ucaldı. Belələrindən biri də Elmar Mirzəyev idi.

AZƏRTAC xəbər verir ki, Elmar 1970-ci ildə Bakının Buzovna qəsəbəsində anadan olmuşdu. Sovet ordusu sıralarında hərbi xidmətini başa vurduqdan sonra qardaşı Vüqarla birlikdə Milli Ordu sıralarına daxil olaraq Şuşa, Laçın və Ağdam uğrunda gedən döyüşlərdə iştirak edib. Son döyüşü 1992-ci il noyabrın 15-dən 16-na keçən gecə Ağdamın Gülablı kəndində olub.

Anası Natella xanım Elmarın üç dəfə yaralansa da, yenidən döyüş bölgəsinə üz tutduğunu ürəkağrısı ilə xatırlayır: "Övladlarımı Vətənə sədaqət ruhunda böyütmüşəm. Elmarda bu hiss xüsusilə güclü idi. Yağı düşmənin ata-baba torpaqlarımıza yiyə çıxmağı, günahsız adamları qətlə yetirməyi onu hədsiz dərəcədə qəzəbləndirirdi. O, özündən iki yaş böyük qardaşı ilə Qarabağı qarış-qarış dolaşmış, neçə-neçə ağır döyüş əməliyyatlarında iştirak etmişdi.

Sonuncu döyüşdə isə... Yoldaşlarını qorumaq ucun qumbara ilə düşmən əsgərlərini qətlə yetirib. Özü də yaralanaraq əsir düşüb. Ermənilər nə qədər çalışsalar, işgəncə və əzab versələr də, döyüş yoldaşlarının mövqeyini düşmənə bildirməyib. Amansız ermənilər onu vəhşicəsinə yandırıblar".

Elmar belə bir oğul idi...

Sinəsi övlad dağlı ana həmin hadisələri indi də həyəcansız danışa bilmir: "Bizim bircə təsəllimiz belə oğulların qanının yerdə qalmaması ola bilər. Son vaxtlar hərbi sahədə aparılan ardıcıl siyasət, ordunun möhkəmlənməsi, xüsusilə Lələtəpədə, Ağdərə və Naxçıvan dağlarında aparılan uğurlu əməliyyatlar bu arzumuzun həyata keçməsinə olan inamı xeyli artırıb.

Şəhid ailələrinin nümayəndələri ilə görüşdə Prezident İlham Əliyev dedi ki, Qarabağ məsələsini danışıqlar yolu ilə həll etməyə çalışırıq. Lakin onu da söylədi ki, ölkəmizin artan potensialı, hərbi-iqtisadi gücü, dünyadakı mövqeyi xeyrimizə işləyir və bu gün danışıqlar prosesində ölkəmizin mövqeləri kifayət qədər güclüdür".

Həmin görüşdə dövlət başçısının bir sözü də yaxşı yadımdadır: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir. Ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir". Ali Baş Komandanın bu sözləri təkcə mənim yox, hamının ürəyincə oldu. Apardığı uğurlu siyasətdə hamımız, bütün ölkə sakinləri Prezidentə dəstək olmalıyıq. Bir şəhid anası kimi dövlət başçısına göstərdiyi bu diqqətə və şəhid ailələrinə göstərdiyi maddi və mənəvi dəstəyə görə təşəkkür edirəm", - deyə Natella xanım bildirib.

## XİN rəhbərləri bu ay Münhendə görüşə bilər



Ermənistan və Azərbaycan XİN rəhbərləri Münhen Təhlükəsizlik Konfransında iştirak edə bilər. SİA Ermənistan KİV-nə istinadən xəbər verir ki, bu barədə XİN mətbuat xidmətinin rəhbəri Anna Naqdalyan açıqlama verib. "Zoqrab Mnatsakanyan Münhendəki konfransa qatılacaq. Bizdə olan məlumata görə, Elmar Məmmədyarov da həmin konfransda iştirak edəcək. XİN rəhbərləri görüşləri öncədən razılaşdırır. Əgər belə bir razılıq olarsa, məlumat veriləcək". Xatırladaq ki, Münhen Təhlükəsizlik Konfransı fevralın 16-18 tarixlərində baş tutacaq.

## İrakli Kobaxidze: "Azərbaycan ilə münasibətlərə böyük önəm veririk"




Axalkalaki rayonunun Bugaşen kəndində erməni hərbçiyə qoyulmuş abidə ilə bağlı məsələ Gürcüstanda hakim partiyada da ciddi müzakirə olunur. AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze parlamentin yaz sessiyasının fevralın 5-də keçirilmiş ilk iclasında söyləyib. Sədr bildirib ki, məsələ ətrafında ciddi müzakirələr gedir. Gələcəkdə bu cür xoşagəlməz hadisələrin baş verməməsi üçün müəyyən tədbirlər görüləcək.

"Bizim Azərbaycan ilə çox yaxşı əlaqələrimiz var. Biz Azərbaycan ilə münasibətlərə böyük önəm veririk. Biz Azərbaycan dövləti, eləcə də digər qonşu ölkələrlə münasibətlərə xüsusi diqqət yetiririk. Azərbaycan ilə münasibətlərin korlanmasına imkan verə bilmərik. Məsələ Azərbaycan tərəfi ilə ətraflı müzakirə olunacaq. Azərbaycan tərəfi ilə həll oluna bilməyən məsələmiz yoxdur", - deyə İ.Kobaxidze vurğulayıb.



## Azərbaycan, Türkiyə və Pakistan XİN başçılarının görüşü keçiriləcək

İslamabadda Azərbaycan, Türkiyə və Pakistan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək. SİA-nın məlumatına görə, bu barədə jurnalistlərə Pakistanın Azərbaycandakı səfiri Səid Xan Mohmand məlumat verib.

"Sammit ötən ilin dekabr ayında keçirilməli idi, lakin hökumət dəyişikliyi ilə əlaqədar təxirə salındı. Görüşün qarşıdakı bir neçə ayda keçiriləcəyi gözlənilir", - deyə pakistanlı səfir bildirib.









# Yeni Azərbaycan Partiyasında gənclərlə görüş keçirilib

## *Əli Əhmədov: "Bugünkü gənclər gələcək siyasətçilərdir, idarəedicilərdir"*

***Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında YAP-ın Sədr müavini-İcra katibi, Baş nazirin müavini Əli Əhmədovun gənclərlə görüşü keçirilib. Görüşü giriş sözü ilə açan YAP sədr müavini Əli Əhmədov qeyd edib ki, fevral ayının 1-də Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev 2 Fevral Gənclər Günü münasibətilə gənclərlə toplantı keçirdi, onlara öz tövsiyələrini verdi, eləcə də, gənclərin dövlətin diqqət mərkəzində olması ilə bağlı mesajlarını çatdırdı: "Azərbaycan Prezidenti gənclərlə dialoqa böyük önəm verir. Bütövlükdə, əhali ilə dialoqun qurulması Azərbaycanda həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir.***

Bir halda ki, siyasətin əsas qayəsini insanlara qayğı təşkil edir, onlarla dialoq mühüm əhəmiyyət kəsb edir. İnsanların arzu və istəklərini bilmədən, onlara düzgün xidmət göstərmək çətin olar. Cənab Prezident çox tez-tez Azərbaycanın müxtəlif bölgələrinə səfər edir və vətəndaşlarla görüşür, onlarla dialoq qurur ki, istək və arzularını öyrənsin və bunu həyata keçirilən siyasətdə nəzərə alsın. Bu mənada, gənclərlə olan görüş də xüsusi önəm təşkil edir".

"YAP-ın 700 mindən çox üzvünün əksəriyyəti gənclərdir", deyə vurğulayan Əli Əhmədov, həmçinin, bildirib ki, hər il partiyaya 25-30 min arasında yeni üzvlər qəbul olunur və bu üzvlər arasında gənclər üstünlük təşkil edir: "Bu, o deməkdir ki, gənclər Ulu Öndər Heydər Əliyev irsini öyrənməyə önəm verir, Prezident İlham Əliyevin siyasətini dəstəkləyir və bunu YAP-a üzv olmaqla nümayiş etdirirlər".

Onun sözlərinə görə, seçki kampaniyalarının uğurla baş tutmasına da gənclər böyük töhfələrini verirlər: "Bütün bunların hamısı, ondan xəbər verir ki, gənclər YAP-ın fəaliyyətinə dəstək verirlər. Bizim də gənclərdən gözləntilərimiz odur ki, yaxşı oxusunlar, biliklərə yiyələnsinlər, yaxşı mütəxəssislər olsunlar. Ən əsası, gənclərimiz vətənpərvər olmalıdır. Harada olmalarından asılı olmayaraq, vətənpərvərlik prinsipi əsasında davranmalıdırlar. Gənclər, eyni zamanda, ictimai-siyasi həyatda da fəal olmalıdırlar, çünki bugünkü gənclər gələcək siyasətçilərdir, idarəedicilərdir".

YAP-ın İcra katibi vurğulayıb ki, partiya öz imkanları çərçivəsində gənclərə şərait yaradır ki, fəallıqlarını nümayiş etdirsinlər: "2019-cu ilin dekabrında növbəti bələdiyyə seçkiləri keçiriləcək. Biz çalışacağıq ki, fəal gənclərimiz seçkidə namizəd qismində iştirak etsin və özlərini sınasınlar. Bununla da, ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etmək imkanları əldə etsinlər".

"Azərbaycanın inkişafını gözü götürməyən qüvvələr var. Onlar bundan qıcıqlanırlar, bizim inkişafımızdan məyus olurlar. Müxtəlif formada inkişafın qarşısını almaq üçün tədbirlər görməyə çalışırlar" deyə bildirən Əli Əhmədov, həmçinin, bildirib ki, zaman-zaman bəzi xarici təşkilatlar Azərbaycanın tutduğu inkişaf yolundan qıcıqlanırlar və bunu normal qəbul etmək olar: "Belə ki, inkişaf edən dövlətə ayrı-ayrı dövlətlərin və yaxud ayrı-ayrı beynəlxalq təşkilatların qıcıqlanması bir qədər başadüşüləndir. Başa düşülməyən isə, Azərbaycanın daxilində olan və müxalifət adı altında Azərbaycana böhtan atan, reallıqlarını təhrif edən Azərbaycan vətəndaşlarını çaşdırmağa çalışanlardır".

"Mən Azərbaycan müxalifətinin kiçik bir hissəsini, Azərbaycan cəmiyyətinin çox cüzi hissəsini təşkil edən radikal müxalifətə demək istəyirəm ki, Azərbaycanda söz azadlığı təmin edilir və bu azadlıqdan istifadə etmək istəyənlər özlərinə xas olan bu hüquqdan istədikləri şəkildə istifadə edə bilir. Ancaq bu hüquqlardan sui-istifadə edərək, Azərbaycanda qarşıdurma yaratmağa çalışan, ölkədəki sabitliyi pozmaq niyyətinə düşən qüvvələr də var" deyə qeyd edən Əli Əhmədov hesab edir ki, radikal müxalifət Azərbaycanı gözü götürməyən bis sıra qüvvələrlə qarşıdurma yaratmaq üçün lazımdır və radikalların daxillərində də sabitliyi pozmağa cəhd edənlər mövcuddur. "Radikal müxalifət mitinq keçirməyi qarşıdurma yaratmaq üçün istifadə edir" deyə bildirən YAP-ın Sədr müavini-İcra katibi, həmçinin, vurğulayıb ki, onlar söz və fikir azadlığından Azərbaycan insanını və Azərbaycan xalqını təhqir etmək üçün istifadə edirlər: "Onlar öz siyasi fəaliyyətlərində Azərbaycan üçün mümkün ola biləcək ən pis ssenariləri əsas götürürlər. Azərbaycana düşmən mövqedə duran istənilən xarici qüvvələrlə sinxron fəaliyyət göstərirlər. Bəzi hallarda bir yerdə də fəaliyyət göstərirlər və onların tapşırıqlarını yerinə yetirirlər".

Əli Əhmədovun sözlərinə görə, məhz bu mənada, Yeni Azərbaycan Partiyasının sıralarında olan gənclərin üzərlərinə bir sıra vəzifələr düşür. "Bu həqiqətləri öz həmyaşıdlarına və dostlarına izah etməyə borcludurlar. Bu partiya üzvü olaraq onların daşıdığı vəzifədir" deyə o, vurğuylayıb.

YAP Sədr müavini onu da bildirib ki, Yeni Azərbaycan Partiyası gənclər partiyasıdır: "Partiyanın sıralarında çoxsaylı gənclər təmsil olunur. Onların sayı gündən-günə artır. Gənclər YAP-ın ideyalarının həyata keçirilməsində xüsusi fəallıq nümayiş etdirirlər. Onlar dövlət əhəmiyyətli tədbirlərin reallaşdırılmasında yaxından iştirak edirlər".

Əli Əhmədov çıxışının sonunda partiyada təmsil olunan bütün gənclərə fəaliyyətlərində uğurlar arzulayıb.

Çıxış edən gənclər də, öz növbələrində, YAP-ın fəaliyyətində yorulmadan, əzmlə mübarizə aparacaqlarını, partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında daha sıx və mütəşəkkilliklə birləşib, ölkəmizin inkişafına davamlı töhfə verəcəklərini qeyd ediblər.

**RÖVŞƏN RƏSULOV**

# Siyavuş Novruzov: "Ehtiyatımızı əldən verməməliyik, bilirik ki, qonşumuz kimdir"

*SİA Milli Məclisin Dini qurumlar və ictimai birliklər Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzovla müsahibəni təqdim edir:*

***- Son iki ildə Azərbaycanla Avropa İttifaqı arasında assosiativ saziş üzrə danışıqlar yeni fazaya keçib. Hər dəfə müzakirələrin aktiv dönəmində hansısa qüvvələr hərəkətə keçir, Azərbaycan əleyhinə kampaniyalara başlayırlar. Kimlərdir bu qüvvələr? Məqsəd bu sazişə mane olmaqdır?***



- Azərbaycan Avropa İttifaqı ilə uzun müddətdir ki, əməkdaşlıq edir və bir neçə dəfə sazişlərimiz olub. Sonuncu dəfə vizaların sadələşdirilməsi ilə əlaqədar saziş imzalanıb. Hazırda assosiativ saziş üzərində iş gedir. Bütövlükdə Avropa İttifaqının həyata keçirdiyi layihələrin böyük əksəriyyətində Azərbaycan iştirak edir. Ən böyük layihələrdən biri Bakı-Tiflis-Ceyhan layihəsidir ki, hətta iqtisadi sferada Avropa İttifaqına daxil olan ölkələrin özü Azərbaycan qədər əməkdaşlıq etmir. Azərbaycanla Aİ arasında 20 milyard avrodan artıq maliyyəni əhatə edən iqtisadi əməkdaşlıq var.

Azərbaycan müstəqil siyasət yürüdür və bunun da əsasında heç bir bloklara qoşulmur, eləcə də hansısa dövlətin və ya təşkilatın diktəsi ilə oturub-durmur. Azərbaycan kimi müstəqil siyasət yeritmək dünyada az-az ölkələrə nəsib olur. Biri özünə böyük qardaş seçir, biri hansısa təşkilata daxil olmaqla öz problemlərini həll etməyə çalışır və s. Azərbaycan isə bu məsələləri xalqın iradəsi və ölkə başçısının cəsarəti ilə özü mərhələ-mərhələ həll edir. NATO-ya daxil olmaq üçün ordunun büdcəsi yetərincə olmalı, hazırlığı, silahların təchizatı standartlara cavab verməlidir. Eləcə də iqtisadiyyatı güclü olan, sosial problemlərini həll edən, işsizliyi aradan qaldıran, kənd təsərrüfatının inkişafı standartlara uyğun olan dövlətlər Aİ-yə daxil olur.

Türkiyə 1950-ci ildən Aİ ilə əməkdaşlıq etsə də, hələ bu günə qədər onu bu quruma qəbul etmirlər. Müəyyən qüvvələr var ki, Aİ ilə əməkdaşlıq və üzvlük məsələsinə maneə yaradırlar. Bir tərəfdən Türkiyəni Aİ-yə buraxmırlar, Azərbaycanın isə əməkdaşlığına xələl gətirmək istəyirlər. Bunu da Avropa Parlamentindəki deputatlar vasitəsilə həyata keçirirlər. Yersiz, mənasız və məzmunsuz qərarlarla Aİ ilə Azərbaycan arasında soyuqluq yaratmağa çalışırlar. Avropa Parlamentinin tarixində fərdlərlə bağlı az-az qərarlar qəbul olunub. Vaxtilə Andrey Saxarov haqda qərar verilmişdi, Saxarov hara, Azərbaycanda şayiə şəklində, heç bir araşdırma aparılmadan bir nəfərin digəri ilə davası, heç bir hüquqi statusu olmayan hadisə barədə qərar hara?.. Qərəz göz qabağındadır.

Ermənistanda partiya sədrinin müavini Mger Yegizaryan aclıq və işgəncədən həbsxanada dünyasını dəyişdi. Bu günə qədər bu hadisə nə müzakirəyə çıxarılıb, nə də barəsində qərar qəbul edilib. Nəinki Avropa Parlamenti, Avropa Şurası, ATƏT-in Parlament Assambleyası, eləcə də Freedom House və Human Rights Watch da susub. Elə bil belə bir adam dünyaya gəlməyib, olmayıb, fəaliyyət göstərməyib. Azərbaycanda adi bir halla, vətəndaşın hərəkəti ilə bağlı Avropa Parlamenti qərar çıxardı. Məsələ aydındır, Avropa-Azərbaycan münasibətlərinə xələl gətirməyə çalışırlar. Hesab edirəm ki, bu da yersizdir. Avropa strukturlarında çalışanlar özləri də başa düşür ki, ikili-beşli standartlarla heç nəyə nail olmaq olmaz.

***- Mehman Hüseynov olayına müxtəlif reaksiyalar verildi. Onun çəkdiyi videolar və həbsi fonunda yaranan ajiotaja münasibətiniz necədir?***

- Hər bir insanın azad fəaliyyət göstərmək hüququ var. Qeydiyyatdan keçib hüquqi status alan hər kəs fəaliyyətə başlaya bilər. Azərbaycanda yerindən duran deyir mən bloggerəm, araşdırmaçı jurnalistəm. Yaxud hüquq-mühafizə orqanlarında fəaliyyət göstərib rüşvət aldığına, yarıtmaz fəaliyyətinə, qanunu pozduğuna görə işdən azad olunan dərhal hüquq müdafiəçisi olur. Halbuki indiyə qədər insanların hüquqlarını, qanunu pozub, rüşvət alıb. İşdən çıxan deyir hüquq müdafiəçisi oldum, təşkilat yaradıb deyir ki, mühit məni sıxırdı. Sıxırdısa, ərizə verib deyərdin ki, bu işlə razı deyiləm, çalışdığım idarədə insan azadlıqları pozulur, düzgün rəftar edilmir, istefa verib başqa sahədə fəaliyyət göstərəcəyəm. Mənə bir nümunə göstərsinlər. Yoxdur. Məsələyə yanaşma tərzi var.

İnsan bir işi fundamental şəkildə görmək istəyirsə, bunun mexanizmi, nizamnaməsi və planı olmalı, buna uyğun hərəkət etməlidir. Aidiyyatı orqanlardan qeydiyyatdan keçdikdən sonra fəaliyyət göstərməyə başlamalıdır. Əlinə fotoaparat götürüb bilib-bilmədən digər vətəndaşın mülkiyyət hüququnu pozurlar.

Bir sahibkardır, özünə ev və ya ofis tikib, onu çəkib verirlər, bilmirlər onun maliyyəsi haradandır, necə tikilib. Qədim Romadan indiyə qədər ən müqəddəs şey mülkiyyət hüququdur ki, bu, qorunmalıdır. Beynəlxalq hüquqda, mülki və siyasi hüquqlar haqda paktda qeyd edilir ki, hüquqlar digərinin hüququnu pozduqda məhdudlaşdırılır. Sən digərinin hüququnu pozursan, hesab edirsən ki, öz hüququn məhdudlaşdırılmayacaq?

***- Azərbaycanda hansı bloggerləri tanıyırsınız, izləyirsiniz?***

- Bir qrupu qaçıb xaricdə oturub, erməni lobbisindən, müxtəlif kəşfiyyat orqanlarından vəsait alır, adlarını da blogger qoyublar. Əslində Azərbaycanın millimənəvi dəyərlərinə, dövlətinə, dövlətçiliyinə, ordusuna, prezidentinə, ayrı-ayrı dövlət nümayəndələrinə qarşı böhtan, yalan, təhqir yazmaqla məşğuldurlar. Azərbaycandakı bloggerlərə gəlincə, izlədiyim şəxslər var, amma birinin adını çəkib başqasını çəkməmək doğru olmaz.

***- Mediaya açıq olan deputatlardan birisiniz. Yeni standartlara cavab verməyən qəzetlərin bir qisminin fəaliyyətinin dayandırılacağı anons edilir. Bu situasiya ilə bağlı fikirləriniz nədən ibarətdir?***

- Media ilə bağlı müəyyən təkmilləşmə işləri gedir. Qəzetlərin tirajı, keyfiyyətinə diqqət yetirilməlidir. Müstəqillik qazanandan sonra fikir verirsinizsə, qəzetlərdə eyni sistemdir, dəyişiklik, rəngarənglik olmur. İstər ölçü, istərsə də dizayn baxımından da qəzetlər olduğu kimi qalır. Onlayn mediada baxırsan, sayt bir neçə ay sonra öz dizaynını dəyişir . Yazıları eyni formada oxuyanda göz yorulur. Ancaq elə qəzetlər var, 20 ildir çıxdığı formada qalıb. Onlar da dəyişiklik etməlidir. Yəqin ki, qəzetlərlə bağlı situasiya da bununla bağlıdır.

***- Milli Məclisin son iclaslarında Azərbaycana qarşı aparılan kampaniyalar zamanı deputatlara çağırışınız oldu. Həmkarlarınızdan reaksiya verən oldumu?***

- Təbii ki, olacaq. Yeni Azərbaycan Partiyasından Milli Məclisə 72 deputat seçilmişdi, prezident seçkilərindən sonra ayrı-ayrı dövlət vəzifəsinə təyinat oldu, hazırda parlamentdə 68 nəfər YAP üzvü var. Çağırış ondan ibarət idi ki, hərə öz sahəsində olan nailiyyətləri ictimaiyyətə və öz seçicilərinə çatdırsın.

Biri sosial sahənin mütəxəssisidirsə, KİV-lərdə, seçiciləri ilə görüşdə, müxtəlif şəxslərlə təmaslarda cənab Prezidentin apardığı siyasətdən, ölkədə gedən inkişafdan danışsın. Bir çoxu özünü çox savadlı göstərməyə çalışır, çıxışında deyir makroiqtisadi sistem belə getdi, balans belə gəldi... Bütün çıxışların hamısı elə sadə ifadə edilməlidir ki, rayonda yaşayan əhali anlaya bilsin. Hər kəs iqtisadçı deyil, insanlar fikirləşir, görəsən, pensiyam nə qədər olacaq? Başlayıblar balans hissə bu qədər, sığorta hissə o qədər olacaq. İnsanlar bu sözlərdən heç nə başa düşməyəcək. Əmək pensiyası alan şəxsə lazımdır ki, konkret ifadə olunsun, tutalım pensiyam 10 manat idi, nə qədər artdı? Deməlisən 5 manat da artdı, oldu 15 manat. Bunu izah edirsən, o da başa düşür, sakitləşir və bilir ki, fəaliyyətini hansı istiqamətdə davam etdirəcək. Əsas odur ki, təbliğat və ya görülən işlər düzgün şəkildə insanlara çatdırılsın.

Təbii ki, bu gün televiziyalarımızda tok şoular verilir, internet azaddır, hər kəs mobil telefon və kompüter vasitəsilə ondan istifadə edir. Bunlarla yanaşı insanlarla ünsiyyət qurulması, canlı görüşlərin keçirilməsi, onları maraqlandıran suallara cavab verilməsi önəmlidir. Məsələn, televiziyada çıxış edəndə vətəndaşın sual vermək imkanı olmur, amma canlı görüşdə artıq sualını verib cavab ala bilir.

***- Sosial şəbəkələrdə aktivliklə bağlı YAP-da da son günlər tədbirlərin sayı artıb. Təklif etmişdiniz ki, sosial şəbəkələrdə şəxsiyyət vəsiqəsi ilə qeydiyyat aparılmalıdır. Bu təklif hələ də qüvvədədir?***

- Azərbaycanda bu problem ciddiləşib. İnsanlar sosial şəbəkənin verdiyi imkandan düzgün yararlanmır. Kimisə nə isə maraqlandırırsa, diskussiyaya girsin, öz fikrini əsaslandırsın ki, səhv danışırsan, arqumentlərini irəli sürsün. Amma Azərbaycanda bir qrup şəxs hamını təhqirə keçib. Təhqirə görə Cinayət Məcəlləsində maddə var. O maddənin tətbiqi üçün fərd bəlli olmalıdır. Ancaq burda kişi qadın, qadın kişi adı ilə yazır. Bununla da həmin şəxsi müəyyənləşdirmək çox çətindir. Milli mentalitetimiz var.

Baxırsan, bütövlükdə Milli Məclisi təhqir edirlər. Milli Məclisdə baban yaşında kişi var, anan yaşında qadın, digər qohum-əqrəban yaşında insanlar var, axı sənin kiməsə iradın varsa, yaz ki, tutalım, Siyavuş Novruzova iradım var, o, düzgün mövqedə deyil və sair. Bütövlükdə Milli Məclisi və oradakı insanları təhqir etmək yolverilməzdir, o təhqir öz valideynlərinə, doğmalarına yönəlir. Öz ailəsini, valideynlərini sevən başqasının ailəsini təhqir eləməz.

***- Feysbuka gəlməyi düşünmürsünüz?***

- Yox, çünki onun çatışmayan çox cəhətləri var. Saxta adlarla profil yaradırlar. Sizin saytınız vasitəsilə bir daha bildirirəm ki, nə Feysbukda, nə də Tvitterdə varam.

***- Müasir dövrdə siyasət sosial şəbəkədə aktivliyi tələb edir axı. Donald Tramp artıq bəyanatlarını Tvitterdən verir, opponentləriniz Feysbukun imkanlarından istifadə edir...***

- Feysbukdan başqa çox geniş imkanlar onsuz da var. Fikirlərimizi ölkəmizdəki onlayn media, digər mətbuat orqanlarında çatdırırıq. İstənilən şəxs də bizim çıxışımızı sosial şəbəkələrə yönəldir.

***- Yeri gəlmişkən, müxalifətin son mitinqlərini necə qiymətləndirirsiniz?***

- Müxalifət ancaq ara qarışdırmaqla məşğuldur. Avropada qərar qəbul olunan kimi eyni xətt üzrə bu fəaliyyət başlandı, dərhal Azərbaycanda müxalifət mitinq çağırdı, vəsait ayrıldı, o vəsaiti də yarı unluq, yarı dənlik edirlər.

Birincisi, xaricdə maliyyə ayıran təşkilat bir hissəsini mənimsəyir, burada çox ciddi korrupsiya halları var, vəsaitin bir qismi Milli Şura rəhbərliyində mənimsənilir, cüzi hissəsini isə bu proseslərə sərf edirlər. Mitinqə gələnlərin hamısı pulla tutulmuş adamlardır. Çünki müxalifətin sosial bazası bəllidir, Yeni Azərbaycan Partiyasının kiçik rayon təşkilatı qədər elektoratları yoxdur. Onların əsas məqsədi qarşıdurma yaratmaq idi. İstəyirdilər ki, polisin səbri tükənsin. Polis işçilərini təhqir edir, söyürdülər.

Sağ olsunlar hüquq-mühafizə orqanının əməkdaşları, böyük səbir nümayiş etdirdilər. Şəhidlər xiyabanına getmək istəyirsiniz, gedin də. Şəhidlər xiyabanına cənab Prezident də, I Vitse-prezident də, baş nazir də, parlament sədri də, nazirlər də, deputatlar da gedir, gül qoyur, ehtiramını göstərir. Burada şou düzəltməyin nə mənası var? Biz hansı dövrdə yaşayırıq.

Halbuki Şəhidlər xiyabanında uyuyanların şəhid olmasının səbəbkarı özləridir. İstər 20 Yanvarda törətdikləri provokasiyalar, istərsə də ərazilərimizin işğalı ilə əlaqədar hakimiyyətə gəlməkdən ötrü oynadıqları oyunlar nəticəsində sadə insanlar şəhid oldular və Şəhidlər xiyabanında yatırlar. Allah şəhidlərimizə rəhmət eləsin.

***- Keçən il Cümhuriyyət ili elan olundu, çoxlu sayda tədbirlər keçirildi, "Son iclas", "Əbədi ezamiyyət" və sair adda filmlər çəkildi, indiyə qədər tarixi faktlarla belə filmlər olmamışdı, bütövlükdə demokratik cümhuriyyətin tarixi, həmin şəxsiyyətlərin taleyinin acı nəticələri açılıb ortaya qoyuldu. Azərbaycan xalqı bir daha faktları, həqiqətləri gördü, bildi. Bəlli oldu ki, demokratik cümhuriyyət Azərbaycan xalqınındır, bunlar nəyisə özəlləşdirmək istəyirlər. Məhəmməd Əmin Rəsulzadə Cümhuriyyət dönəmində Milli Şuranın sədri olub, Əli Kərimlinin sədri olmayıb ki. Milli Şura da Azərbaycan xalqınındır. Gedib "Azadlıq" qışqırmaqla, mitinq keçirməklə nə olur?***

- Azərbaycan dövləti ötən ili "Cümhuriyyət ili" elan etmişdi, bu il də tədbirlər, filmlərin çəkilişi davam etdirilir, kitablar yazıldı, bu il yenə xatırlanır, tədqiqatçılar 10-dan çox verilişdə Rəsulzadə, cümhuriyyətlə bağlı çıxışlar etdi. Qışqırıb, hay-küy salmaqla bir şey alınmaz. Bu, Azərbaycan xalqının nailiyyətidir, kiminsə, hansısa qrupun, təşkilatın yox. Yalandan adınızı Milli Şura qoymusunuz. Nə qədər ad qoyursan qoy, sən Milli Şura olmadın. Bunlar hamısı təxribatdır, insanları provokasiyaya çəkmək istəyirlər. Bunlar Qərbin, erməni lobbisinin öyrətdiyi, dəstək və pul verdiyi insanlardır.

Ardı Səh. 6

# Siyavuş Novruzov: "Ehtiyatımızı əldən verməməliyik, bilirik ki, qonşumuz kimdir"

*SİA Milli Məclisin Dini qurumlar və ictimai birliklər Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini Siyavuş Novruzovla müsahibəni təqdim edir:*

Əvvəli Səh. 5

***- Rəsulzadənin doğulduğu evdə barelyefinin oğurlanması faktına münasibətiniz necədir?***

- Bu barədə məlumatım yoxdur.

***- Məhəmməd Əmin Rəsulzadə sizin üçün kimdir?***

- Rəsulzadə müstəqil Azərbaycan dövlətinin qurucularından biridir. Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov kimi şəxsiyyətlər Azərbaycanın fəxridir.

***- Rəsulzadənin abidəsinin görkəmli yerdə olmamasına dair narahatlıqlar da var.***

- Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı parkların birində xatirə kompleksi yaradılması barədə qərar qəbul olunub. "İstiqlal bəyannaməsi" keçmiş "İsmailiyyə"də imzalandığı üçün İstiqlaliyyət küçəsində cümhuriyyətin şərəfinə İstiqlal bəyannaməsi abidəsi ucaldılıb. Bununla yanaşı rəssamlarımıza, arxitektorlarımıza elan verilib ki, yeni abidə hazırlanıb hökumətə təqdim olunsun. Müxtəlif layihələr hazırlanıb, iş başa çatandan sonra qərar qəbul olunacaq və məsələ həll ediləcək.

***- Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən proseslər barədə nə düşünürsüz? Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə Davos forumu çərçivəsində bir daha görüşdü. O hakimiyyəti ələ aldığı ilk vaxtlarda Qarabağ danışıqlarına dair absurd təkliflər irəli sürmüşdü. Sizcə, mövqeyində dəyişikliklər olacaq? Paşinyandan gözləntiləriniz nələrdir?***

- Dağlıq Qarabağ məsələsində bir yenilik var. Bu da ondan ibarətdir ki, Ermənistanda Dağlıq Qarabağ kartı üzərində hakimiyyətə gələnlərin hamısı vəzifədən uzaqlaşıb. Onlar imkan vermirdi ki, Qarabağ münaqişəsi həll olunsun. Çünki həll ediləndə onlara yer olmayacaqdı. Bəzilərinin həbsi, bir qismi barədə cinayət işinin qaldırılması onu göstərdi ki, bu insanlar təkcə Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş digər ərazilərində deyil, eyni zamanda Ermənistanda da kifayət qədər cinayətlər törədiblər. Təəssüf ki, beynəlxalq təşkilatlar buna çox laqeyd münasibət bildiriblər. Bu gün Ermənistan çox acınacaqlı vəziyyətdədir. Qərb dövlətləri, o cümlədən ABŞ Ermənistanı düşdüyü vəziyyətdən çıxarmağa çalışır. Söhbət Azərbaycana olan münasibətdən getmir.

Məsələ Ermənistanın xilas yolu ilə bağlıdır. Ermənistanın xilas yolu ancaq Azərbaycan və Türkiyə ilə əlaqələrin qurulmasından ibarətdir. Bunun üçün isə Dağlıq Qarabağ münaqişəsi həll edilməli, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Cənab Prezident dəfələrlə vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmayana qədər Ermənistanla hər hansı bir kommunikasiya, iqtisadi-siyasi əlaqə ola bilməz. Tamamilə düzgün və yerində olan siyasətdir. Paşinyan yox, bir başqası da gəlsə görəcək ki, imkan yoxdur. İqtisadiyyat yoxdur, müəssisələr işləmir, sosial problemlər həll olunmur, əhalinin vəziyyəti acınacaqlıdır, hər il 100 minə yaxın insan Ermənistanı tərk edir, turizm sektoruna heç kəs yaxın durmur, istehsal müəssisəsi yoxdur, istehsal olsa belə, çıxış yolları məhduddur.

Bütün bunların hamısı ona gətirib çıxarır ki, münaqişə öz həllini tapmalıdır. ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri xeyli dərəcədə aktivləşib. Ermənistan orcusunda vəziyyət acınacaqlıdır, təchizat və psixoloji baxımdan vəziyyət yaxşı deyil, hərbçilərin böyük əksəriyyəti Dağlıq Qarabağ ərazisinə xidmətə gəlmək istəmir, analar sual verir ki, övladımın Qarabağda nə işi var? Paşinyan hələ işin içində deyil, gərək danışıqlar prosesini öyrənə, Özünə heç olmazsa yaxşı müşavirlər götürməlidir ki, onu başa salsınlar.

Çünki özü dərin adam deyil. Dünya, Avropa, ölkə siyasətindən başı çıxmır. Bu da təbii ki, zaman aparır. Hesab edirəm ki, münaqişənin həlli çox da uzaqda deyil.

***- Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündən sonra xalqların sülhə hazırlanması barədə bəyanat yayıldı. Sizcə xalqlar sülhə hazırdırmı?***

- Nə onlar köçüb gedəcək, nə də biz. Əvvəl-axır bu proses olacaq. Tarixdə 1905-ci, 1918-ci ildə də bu proses olub, sonra münasibətlər bərpa olunub. Məsələ ondadır ki, ehtiyatımızı əldən verməməliyik. Bilirik ki, qonşumuz kimdir.

***- Birgəyaşayışı təsəvvür edirsiniz?***

- Qonşudur da, tamamilə köçüb getməyəcək ki. Burada yaşayacaqlar, tədricən ərazilər tam bərpa olunduqdan, qarşılıqlı etimad yarandıqdan sonra münasibətlər illərlə düzələcək. Yaralarımız sağalana qədər çətin olacaq.

***- Bu il ölkədə növbədənkənar parlament seçkilərinin keçiriləcəyinə dair fikirlər nə dərəcədə həqiqətəuyğundur?***

- Parlament seçkilərinin tarixi Konstitusiyada göstərilib. Referendum keçiriləndə gərək bu, seçki məcəlləsinə daxil ediləydi. Prezident, bələdiyyə və referendumla bağlı tarix Konstitusiyada göstərilməyib.

Lakin ilkin Konstitusiya qəbul olunanda parlament seçkilərinin tarixi orada qeyd olunub, noyabrın 3-cü həftəsində keçirilir. Növbəti parlament seçkiləri vaxtından qabaq keçirilməli olsa, gərək referendum ola, həmin bənd Konstitusiyadan çıxarıla. Yaxud bu, parlament özünü buraxdığı halda mümkündür. Parlamentin buraxılması isə bir neçə halda mümkündür. Hökumətin hesabatı bir neçə dəfə qəbul edilməyəndə, baş nazirin təyinatına etiraz ediləndə, yaxud deputatların hamısı ərizə ilə müraciət edəndə parlament buraxılır və o halda yeni seçkilər keçirilir.

***- Referendum keçirilməsi və ya deputatların ərizəsi ilə parlamentin buraxılması barədə müraciət etməsi gözləniləndir?***

- Bu, mənim səlahiyyətimə daxil olan məsələ deyil.

***- Növbəti dönəm üçün deputatlıq arzusundasınız?***

- Partiyamız və Sədri nə qərar qəbul etsə, o qərara tabe olacağam.

***- Bir müddət öncə görüntüləriniz yayılandan sonra səhhətinizlə bağlı müzakirələr vardı, indi özünüzü necə hiss edirsiniz, səhhətiniz necədir?***

- Özümü yaxşı hiss edirəm, gördüyünüz kimi, hər zaman iş başındayam. İstirahətə də getmirəm. Yayda Naxçıvana gedirəm, seçki dairəm də oradadır, gedib seçicilərimlə görüşürəm.

***- Həmkarınız Ağacan Abıyev kurrikulum sistemi ilə bağlı özünəməxsus reaksiya vermişdi. Valideynlər tərəfindən zaman-zaman tədrisin ağırlığı, hətta uşaqların məktəb çantasını daşımaqda çətinlik çəkdiyinə dair fikirlər səslənir. Səhv etmirəmsə, övladlarınız məktəblidir. Sizin bu məsələyə yanaşmanız necədir?***

- Tədrisdə yəqin ki, müəyyən dərəcədə yüngülləşmə olacaq. Biz dünyaya açığıq, qapalı ölkə deyilik, ingilisə əlavə dil öyrənmək lazım deyil, amma azərbaycanlıya öz dilindən başqa ingilis dilini də öyrənmək lazımdır. Bu da bir yükdür. Dünyanın aparıcı ali məktəblərinə daxil olmaq üçün uşaqlar çox çalışırlar. Azərbaycanda 700 bal toplayan uşaqlar var. Mən Cənubi Koreyada olanda gördüm ki, uşaqlar inkişafı təmin etmək, rəqabətə davam gətirməkdən ötrü səhər saat 7-dən 21-dək oxuyurlar. Uşaqlar asudə vaxtını səmərəli keçirməli, idmanla məşğul olmalı, dünyagörüşünün artması üçün bədii ədəbiyyata müraciət etməlidir. Əks halda onların dünyagörüşündə və fiziki durumunda problem yaranacaq.

***- Cənubi Koreyada olanda Şimali Koreyaya getmədiniz?***

- Getdim, tamamilə fərqli ölkədir, çox sərt sistem hökm sürür. Xalq da həyatını o cür seçib. Əslində biz o dövrü yaşamışıq, Sovet hökuməti dövründəki kimidir. Onun da yaxşı və pis cəhətləri var. Əxlaq, tərbiyə, mənəvi dəyərlər qorunurdu, təhsil, səhiyyə bütövlükdə pulsuz idi, düzdür, belə olanda da inkişaf o qədər getmir, yenilik gəlmir. İndi dövr dəyişib, zamanın tamam başqa tələbləri var.

***- Məlumdur ki, deputat kimi əməkhaqqınız yüksəkdir. Amma iki nəfərlik sıravi təqaüdçünün ailəsinin aldığı pul 350-360 manat olar. Necə düşünürsünüz, həmin pulla həm bazarlıq etmək, həm həkimə getmək, dərman almaq, kommunal haqları ödəmək mümkündürmü?***

- Hər bir şəxsin özünün dolanışıq mexanizmi olmalıdır. Rokfeller bir cür dolanır, mən başqa cür dolanıram, o biri də başqa cür... Təbii ki, hamı çalışır ki, yaxşı yaşasın. Dövlətin də vəzifəsi odur ki, hər bir vətəndaşa layiqli həyat şəraiti yaratsın. Amma başqa məqamlar da nəzərə alınmalıdır. Biri ömrü boyu ağır sənayedə işləyib, o biri hardasa yüngül işdə çalışıbmış əlini ağdan-qaraya vurmayıb. Sonda biri o birindən az təqaüd alır. Buna görə də dövləti suçlamaq doğru deyil. Yəni, məsələnin başqa tərəfləri də var.

Təbii ki, yalnız təqaüdlə yaşamaq çətindir. Hərdən xariclə müqayisə aparırlar. Orda insan işləyir pulunu yığır, pensiya yaşında da götürüb səyahətə çıxır. Bizdə isə insanlar bütün gücünü, qazancını uşağına, ailəsinə sərf edir. Yəni, investisiyanı ailəsinə qoyur ki, sonra da ona baxsınlar. Xaricdə isə uşağın 16-17 yaşı olan kimi, valideyn onları həyata buraxır. Bax, belə fərqli məsələlər var. Təbii ki, mən istəyərdim ki, hər bir vətəndaşımız 10 min manat pensiya alsın, amma gərək reallıqdan uzaq olmayaq da.

***-Siyavuş müəllim, Prezident seçkilərindən sonra bir sıra struktur və kadr islahatları həyata keçirilib. Dəyişikliklərdən sonra ötən müddət ərzində hansı fərqi hiss edirsiniz?***

-Təbii ki, xeyli dəyişikliklər var. Vergi sistemində xeyli problemlər həll olundu, özbaşınalıq aradan qaldırıldı. Sahibkarları sıxışdırırdılar, 6 ay qabaqdan pul yığılırdı. Son dövrlər isə bütün bunlara son qoyuldu. Gördüyünüz kimi, islahatlar gedir. Eləcə də gömrük sistemində mövcud problemlər aradan qaldırıldı. Digər sahələrdə də islahatlar gedir. Müasir texnologiyalar tətbiq olunur.

***- Problemlər kadrlarla, yoxsa strukturla bağlı idi?***

-Hər iki faktor var idi. O ikisi bir-birini tamamlayırdı. Ona görə islahat hər iki məqamı əhatə edir.

***- Ən çox narazılıq sosial müdafiə ilə bağlı idi. Səlim Müslümov Sahil Babayevlə əvəzləndi, amma yenə də problemlər var. O vaxt ünvanlı sosial yardımla bağlı neqativliklər var idi, indi də özünüməşğulluq proqramından şikayətlər var. Hətta bu günlərdə qoca, xəstə heyvanların insanlara paylanması məsələsi parlamentdə də müzakirə olunmuşdu. Yəni, kadr dəyişikliyi elə də ciddi rol oynamadı...***

- Bilirsiniz, bütün sahələrdə çalışan insandır. İnsan faktoru olan yerdə problemin olması mümkündür. Son müşavirədə cənab prezidentin əsas fikri ondan ibarət oldu ki, hər bir şey insanlar üçündür. Yəni, insanlar üçün çalışmaq lazımdır. Ayrı-ayrı layihələri yerinə yetirənlər də insandır. Axı, hər bir məmurun yanına nəzarətçi qoymaq mümkün deyil. Hesab edirəm ki, islahatlar dərinləşdikcə problemlər mərhələli şəkildə həllini tapacaq. Bilirsiniz, inqilablar əslində beyinlərdə olmalıdır. Əslində son illər kifayət qədər böyük dəyişikliklər olub. Müqayisə etsək, görərik ki, dünya ölkələri arasında biz çox irəlidəyik.

***- Adətən hansısa məmur işdən çıxarılandan sonra onun barəsində...***

- (Sözümüzü kəsərək) Bəli, təəssüf ki, bizdə belə bir tendensiya var ki, hansısa nazir işdən çıxarılandan sonra arxasınca danışırlar.

***- Bəs, indi Siz konkret hansı sahələrdə problemlər müşahidə edirsiniz?***

- Yeni təyin olunan məmurlarla bağlı konkret nəsə demək mümkün deyil. Hələ yeni başlayıblar. Özü də bu sahələr çox ağır sahələrdir. Yəqin ki, müəyyən müddətdən sonra müsbət nəticələr əldə olunar.

***- Siyavuş müəllim, son dövrlər müxalif düşərgədə də hərəkətlənmə var. Ard-arda aksiyalar təşkil olunur, yeni birliklər yaranır. Rəqiblərinizin hərəkətlənməsi narahatlıq yaratmır ki?***

- Qətiyyən narahat deyilik. Bizim kiçik rayon təşkilatımız onların hamısının cəmindən böyükdür. Sadəcə olaraq, bu insanlar Avropadan idarə olunurlar və onların tapşırıqlarına uyğun fəaliyyət göstərirlər, eyni mərkəzdən maliyyələşirlər. Avropa Parlamenti Mehman Hüseynovla bağlı məsələni araşdırmadan qərar qəbul edir, amma Ermənistanda siyasi partiya sədri həbsxanada işgəncə və aclıq aksiyasından ölür, onun barəsində beynəlxalq təşkilat bir cümlə belə demir. Belə yanaşma sərgiləyən təşkilatdan ədalətli qərar gözləməyə dəyərmi, xeyr.

Ona görə də biz ayıq-sayıq olmalıyıq. Çünki bizi istəməyən qüvvələr sapı özümüzdən olan baltalardan istifadə etməyə çalışırlar. Şəhidlər Xiyabanına Prezident də, Vitse prezident də, digər dövlət rəsmiləri də gedir, ziyarət edirlər, ehtiramlarını bildirirlər. Amma Əli Kərimli və ətrafı bura gələndə şou düzəldirlər. Buna nə ad verəsən?

***- Siyasətdə belə qəbul olunur ki, güclü iqtidarın güclü müxalifəti olar. Adətən müxalifətçilərə sual verirəm ki, bəlkə hakimiyyətlə dil tapa bilmirsiniz. İndi Sizdən soruşuram, bəlkə müxalifətlə dil tapa bilsəniz, dialoq mümkündür?***

- Müxalifət başqa şeydi. Parlamentdə, parlamentdən kənar müxalifət var, xarici qüvvələrə xidmət edənlər var. Bizdə müxalifət yekcins deyil, müxtəlifdir. İkincisi, müxalifət elə ideyalar gətirməlidir ki, insanlar tərəfindən ona dəstək ala bilsinlər. Müxalifət dövlətlə xalq arasında elə bir qüvvəyə çevrilməlidir ki, hər hansı alternativ layihələrin dövlətə çatdırılması ilə məşğul olmalıdır. Müxalifətin funksiyası təkcə mitinq, yürüş keçirmək deyil. Seçkidə iştirak etməli, alternativ layihələr təqdim etməlidirlər. Ancaq korrupsiya və rüşvətxorluq sözlərini əzbərləyiblər, ortaya isə bir vərəq sənəd qoymayıblar. Hətta Qarabağla bağlı hər hansı bir sənəd, yaxud təklif hazırlayıb, ortaya qoymayıblar. Ona görə də insanlar bu adamların arxasınca getmirlər.

# Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclik formalaşır

*YAP Gənclər Birliyinin sədri Seymur Orucovun yap.org.az-a müsahibəsi*

***- Seymur müəllim, məlum olduğu kimi fevralın 1-də Bakıda 2 Fevral Azərbaycan Gəncləri Gününə həsr olunmuş təntənəli tədbir keçirildi. Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev gənclər qarşısında dərin məzmunlu çıxış etdi. Bu baxımdan, tədbirin əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik...***



- Ümumiyyətlə, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Bu mənada Azərbaycanda da gənclər cəmiyyətin bütün həyatında aktiv iştirak edirlər. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir.

2 Fevral Azərbaycan Gəncləri Günü də Ümummilli liderimiz Heydər Əliyevin gəncliyimizə böyük hədiyyəsidir, gənclərə dövlətin etimadının ifadəsidir. Hər il bu gün respublikamızda böyük coşğu ilə qeyd olunur. Fevralın 1-də Bakı Konqres Mərkəzində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2 Fevral Azərbaycan Gəncləri Gününə həsr olunmuş təntənəli tədbirin keçirilməsi də dövlətimizin gəncliyə olan diqqətinin bariz nümunəsidir.

Tədbirdə dövlətimizin başçısı parlaq çıxış etdi. İlk olaraq, Gənclər Günü münasibətilə təbriklərini çatdıran Prezident İlham Əliyev bu günün Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edildiyini xatırlatdı, Ümummilli liderin gənclərə həmişə böyük sevgi və qayğı ilə yanaşdığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanda müasir gənclər siyasətinin 1994-cü ildən başladığını, həmin il Ulu öndərin o zaman mövcud olan çətinliklərə baxmayaraq, Gənclər və İdman Nazirliyini yaratdığını və bunun da gənclər üçün imkanlar açdığını vurğuladı. Prezident İlham Əliyev ölkəmizdə gənclərlə bağlı dövlət proqramlarının qəbul olunduğunu, müxtəlif mötəbər beynəlxalq tədbirlərin keçirildiyini bildirdi, bölgələrdə Gənclər mərkəzlərinin, Olimpiya İdman komplekslərinin açıldığını qeyd etdi.

Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxundu, onların cəmiyyətin fəal üzvləri olduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. "Haqlı olaraq gənclərimizlə fəxr edə bilərik", - deyən dövlətimizin başçısı şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu vurğuladı və qeyd etdi ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır.

Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycanın son illərdə qazandığı uğurlardan və sosial-iqtisadi inkişafdan danışdı, ölkəmizin beynəlxalq nüfuzunun artdığını vurğuladı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hüquqi, siyasi və digər cəhətlərdən mövqelərimizin möhkəmləndiyini qeyd etdi.

Çıxışının sonunda Prezident İlham Əliyev bir daha Azərbaycan gənclərinə inandığını və güvəndiyini bəyan etdi. Əlbəttə ki, cənab Prezidentin bu fikirləri biz gənclərdə fəxarət doğurur, bununla yanaşı məsuliyyətimiz də artırır. Çünki Azərbaycan gəncliyi dövlətin inam və etimadını layiqincə doğrultmalıdır. Bu mənada həmin tədbir və tədbirdə səslənən fikirlər böyük önəm kəsb edir, gənclərimizin qarşısına yeni vəzifələr qoyur.

***- Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi tövsiyələr Azərbaycan gəncləri qarşısında hansı vəzifələr qoyur?***

- Bu gün Azərbaycanda gənclər siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar.

Bilirsiniz ki, Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları da həyata keçirilir. Bu proqramlar Azərbaycan gəncliyinin inkişafına böyük töhfələr verir. Eləcə də, gənclər daim irəli çəkilir, mühüm dövlət postlarına təyin olunurlar. Yəni, dövlət idarəçiliyində, eləcə də seçkili orqanlarda gənclərin təmsilçiliyi artır. Həmçinin, müxtəlif sahələrdə uğurlar qazanan, Azərbaycanın adını yüksəldən gənclərimiz dövlət rəhbərliyi tərəfindən layiqincə dəyərləndirilirlər.

Gəncliyin qarşısında dayanan əsas vəzifə bundan ibarətdir ki, bilikli, yüksək təhsilli, vətənpərvər olmalı, dövlətimizin inkişafına və daha da güclənməsinə, müstəqilliyimizin qorunmasına böyük töhfələr verməlidirlər. Bu baxımdan, Azərbaycan gəncliyi dövlətin göstərdiyi etimadı layiqincə doğrultmalıdır. Gənclərimiz bu yolda inamla irəliləyir və gələcəkdə daha yüksək nəticələr əldə olunacaq.

***- Məlumdur ki, ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib, daha da güclənib. Amma Azərbaycanın güclənməsi müəyyən dairələri narahat edir. Bu dairələr müxtəlif vasitələrlə qazanılan uğurlara kölgə salmağa çalışırlar. Bu haqda nə deyə bilərsiniz?***

- Bu gün Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib. Cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan öz tarixində bu qədər güclü olmayıb. Bəli, bu gücün mənbəyi Heydər Əliyev yoludur, bu gücün mənbəyi xalqla iqtidarın birliyidir, bu gücün mənbəyi Azərbaycan xalqının Prezident İlham Əliyevə inamıdır. Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşib

Həqiqətən də, ötən illər ərzində böyük inkişaf yolu keçib. Bu inkişaf bütün sahələri əhatə edir. Prezident İlham Əliyevin siyasəti nəticəsində inkişafın Azərbaycan modeli formalaşıb ki, bu da dünya ölkələri üçün nümunədir. Son 15 ildə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artıb, əhalinin sosial rifahı əhəmiyyətli dərəcədə yüksəlib. Azərbaycan Cənubi Qafqazın lider dövlətidir, ölkəmiz regionda əsas söz sahibidir. Bundan əlavə, Azərbaycanın beynəlxalq müstəvidə də nüfuzu və rolu artmaqdadır. Belə ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolunu gücləndirir. Ötən il Cənub Qaz Dəhlizinin açılığı, TANAP layihəsinin istifadəyə verilməsi bu baxımdan böyük əhəmiyyət kəsb edir. Eləcə də, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi, həmçinin Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması Azərbaycanın nəinki regionda, bütövlükdə dünyada mövqeyini daha da gücləndirir. Nəzərə alsaq ki, bu layihələr Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin siyasi iradəsinin ifadəsi olaraq gerçəkləşir, onda ölkəmizin dünya üçün, region ölkələrinin inkişafı üçün nə qədər önəmli töhfələr verdiyini əminliklə söyləyə bilərik.

Təbii ki, Azərbaycanın uğurları dostlarımızı sevindirdiyi kimi, düşmənlərimizi də məyus edir. Bu səbəbdən də, ölkəmizin nailiyyətləri artdıqca, buna kölgə salmağa çalışan qüvvələr də müxtəlif tipli qərəzli kampaniyalarla Azərbaycanın beynəlxalq imicinə, uğurlarımıza ləkə yaxmağa çalışırlar. Dünyadakı anti-azərbaycançı mərkəzlər, erməni lobbisi və onların əlində alət olan sapı özümüzdən olan baltalar hər vəchlə ictimai rəyi çaşdırmağa çalışırlar. Həm xaricdəki dairələr, həm də daxildəki radikal müxalifət sosial şəbəkələr vasitəsilə xalqı çaşdırmağa, səhv, yalan, böhtan xarakterli məlumatlar yayaraq, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər. Amma onlar heç vaxt məqsədlərinə nail ola bilməyəcəklər. Onların indiyə qədərki məkrli planları fiaskoya uğradığı kimi bundan sonra da belə olacaq. Çünki Azərbaycan cəmiyyəti yetkin bir cəmiyyətdir, heç bir yalan kampaniya ilə onu doğru yoldan sapdırmaq mümkün deyil. Amma bununla belə arxayınlaşmaq olmaz, vətəndaşlarımız, xüsusilə gənclər həmin dairələri ifşa etmək üçün fəaliyyətlərini daha da gücləndirməlidirlər.

***- Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi həmin dairələrə qarşı hansı addımlar atır?***

- Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı siyasi qüvvəsidir. Partiyamızda gənclərin təmsilçiliyi 40 faizdən çoxdur və yeni üzv olanların da böyük əksəriyyəti gənclərdən ibarətdir. Yeni Azərbaycan Partiyasında yüksək bilik və bacarıqlı, intelektual gənclər ordusu birləşib.

Bu gün gənclərimiz sosial şəbəkələrdə çox fəaldırlar. Yeni Azərbaycan Partiyasının gənc üzvləri radikal müxalifət düşərgəsinə, eləcə də xaricdə oturub ölkəmizə qarşı qara piarla məşğul olan dairələrə sosial şəbəkələrdə tutarlı cavab verirlər. Onlar bizim gənclərimizin əsaslı faktları, arqumentləri qarşısında acizdirlər. Sadəcə, onlar maddiyat qarşısında xaricdən aldıqları sifarişləri hələ də icra etməyə cəhd göstərirlər.

Amma Azərbaycan xalqı onsuz da onların kim olduğunu çox gözəl bilir. Xalq arasında radikalların heç bir sosial dayaqları yoxdur. Buna görə də, onların çirkin məqsədləri həmişə iflasa uğrayır.

İnsanlar müxaliflərin yalanlarına yox, ölkəmizdə həyata keçirilən inkişaf və quruculuq siyasətinə inanır. Yeni Azərbaycan Partiyası gənclərinin də əsas işi ondan ibarətdir ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gördüyü möhtəşəm işləri əhaliyə, o cümlədən gənclərimizə çatdıraq. Bu yöndə təbliğat işlərini daha da gücləndirəcəyik. Biz hər zaman gənclərimizlə görüşlər zamanı onların dövlətimizin başçısına sonsuz inam və məhəbbətinin şahidi oluruq. YAP Gənclər Birliyi olaraq bundan sonra da sosial şəbəkələr və digər çoxsaylı layihələr vasitəsilə ölkəmizdə həyata keçirilən siyasətin uğurlarını daim ictimaiyyət arasında təbliğ edəcəyik. Eyni zamanda, antiazərbaycançı mərkəzlərin, radikalların Azərbaycana qarşı məkrli niyyətlərinin ifşası istiqamətində fəaliyyətimiz daha geniş şəkildə davam olunacaq.

## "Yeni dövlət proqramı insanların daha da yaxşı yaşamasına xidmət edəcək"



"Prezident İlham Əliyev tərəfindən regionların inkişafını əhatə edən proqramların qəbulu artıq ənənə halını alıb. Bu proqramların sayəsində ölkəmizin bütün bölgələrində məqsədyönlü işlər görülür". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Jalə Əliyeva deyib.

Prezident İlham Əliyevin 2003-cü ildə hakimiyyətə gəldiyi ilk dövrlərdə verdiyi vədlərdən birinin qısa zaman kəsiyində regionlarla paytaxt, kəndlərlə şəhərlər arasındakı fərqin azaldılmasından ibarət olduğunu deyən deputat söyləyib ki, çox az müddətdə xalqımız deyilənlərin bariz nəticəsini görmüş oldu: "Bu gün rayon mərkəzlərinə, bölgələrə getdikdə ilk növbədə insanların xarici görüşündən başlayaraq, çəkilən yollar, tikilən müəssisələr, bütövlükdə infrastrukturun həqiqətən şəhərdəkindən fərqli olmadığını görmək mümkündür. Bu işlər əlbəttə, durmadan davam etdirilir, boşluqlar doldurulur. Proqram çərçivəsində rayonlarımızın ehtiyacları təmin olunur, problemlər həll olunur".

Ölkə başçısı tərəfindən bölgələrin inkişafı istiqamətində tez-tez sərəncamların imzalandığını diqqətə çatdıran J.Əliyeva vurğulayıb ki, bu sərəncamlar əsasında büdcədən ayrılan böyük vəsaitlər vətəndaşlarımızın daha da yaxşı yaşamasına istiqamətlənib: "Bütün bunlar Azərbaycan insan amilinin ən əhəmiyyətli yerdə dayandığının sübutudur". Regionların inkişafı istiqamətində 2019-2023-ci illəri əhatə edəcək yeni dövlət proqrama gəlincə, deputat qeyd edib ki, bu proqram ölkəmizin, xüsusilə də regionlarımızın daha da inkişaf etməsinə, torpaqlarımızın hər qarışının daha da məhsuldar olmasına, Azərbaycan insanının daha da yaxşı yaşamasına xidmət edəcək.

# "Qloballaşan dünya və müasir Azərbaycan gəncliyi"



***Dünən "Səs" qəzetinin redaksiyasında "Qloballaşan dünya və müasir Azərbaycan gəncliyi" mövzusunda dəyirmi masa keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə "Səs" Media Qrupun rəhbəri Bəhruz Quliyev, ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının rəhbərləri, Yeni Azərbaycan Partiyasının fəal gəncləri və KİV nümayəndələri iştirak edib.***

"Səs" Media Qrupun rəhbəri Bəhruz Quliyev tədbiri giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan gəncliyi daim dövlətin diqqət və qayğısı ilə əhatə olunub: "Azərbaycanda həyata keçirilən dövlət proqramları, layihələr təkcə paytaxt gənclərini deyil, eləcə də region gənclərinin inkişafını stimullaşdırır. Region gənclərinin sağlam ruhda inkişaf etməsi məqsədilə bölgələrimizdə idman mərkəzləri, olimpiya kompleksləri, gənclər evləri və müxtəlif dərnəklər açılır, onların asudə vaxtlarının səmərəli şəkildə keçməsi üçün lazımi infrastruktur yaradılır.









Bir sözlə, Azərbaycan gənclərinin xaricdə təhsilindən tutmuş fərdi inkişaflarına qədər bir sıra dövlət qurumları və fondlar tərəfindən dəstək göstərilir. Bu uğurlar həm dövlətin apardığı siyasət, həm də Prezidentin şəxsi iradəsi nəticəsində qazanılıb. Ən əsası odur ki, gənclik bunu yüksək qiymətləndirir və biz bunun Aprel döyüşlərində də bir daha şahidi olduq. Belə ki, həmin vaxt Azərbaycan gəncliyi Ali Baş Komandanın bir əmri ilə torpaqlarımızı azad etməyə hazır olduğunu əməli ilə sübut etdi. Bu isə liderə ehtiramın və inamın əlamətidir".

Daha sonra Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov çıxış edərək bildirib ki, ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır: "Prezident İlham Əliyev gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi bu təbəqəyə daim böyük diqqət və qayğı göstərir. Bu gün artıq Azərbaycan gəncliyi yerli, mərkəzi icra hakimiyyəti, təhlükəsizlik institutlarında, diplomatik korpuslarda, xaricdə fəaliyyət göstərən transmilli şirkətlərdə fəaliyyət göstərirlər. Artıq gənclərdə könüllülük institutu formalaşmağa başlayıb. Bu da mühüm əlamətdir".

Mənəvi Dəyərlərin Təbliği Fondunun İcraçı direkrtoru Mehman İsmayılov çıxışında qeyd edib ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir və mədəniyyətimiz də ən qədim və zəngin mədəniyyətlərdən hesab olunur. Təbii ki, mədəniyyətimiz bu zənginliyi xalqımızın ortaya qoyduğu dəyərlərə borcludur: "Mədəniyyətimizin əsas elementlərindən olan mənəvi dəyərlərimizi qorumaq və inkişaf etdirmək çox vacibdir. Biz gələcəkdə bu sahədəki fəaliyyətlərimizi daha da gücləndirmək niyyətindəyik. Regionlarda gənclərin bu işə cəlb olunması xüsusi diqqətimizdədir. Gələcək layihələrimiz əsasən dini maarifləndirmənin davam etdirilməsi, ailə dəyərlərinin qorunması, azərbaycançılıq ideologiyasının təbliği, gənclər və məktəblilər arasında milli şüurun gücləndirilməsi və s. kimi məsələləri əhatə edəcəkdir".

Fondun icraçı direktoru həmçinin əlavə edib ki, bu ilin Prezident İlham Əliyev tərəfindən "Nəsimi İli" elan olunması sadəcə ölməz şair və mütəfəkkirimizin deyil, bütövlükdə Azərbaycan mədəniyyətinin, onun əsas elementləri olan dilimizin, ədəbiyyatımızın və mənəviyyatımızın əbədiləşdirilməsinə xidmət edir: "Ulu öndər Heydər Əliyevin xalqımızın milli, mənəvi və mədəni irsinin inkişafı sahəsindəki fəaliyyət istiqamətləri bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının təşəbbüsü ilə şairin bütün əsərləri latın qrafikası ilə yenidən nəşr olunub, 2017-ci ilin may ayında Parisdə UNESCO-nun mənzil qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilib, 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənə-

# “Qloballaşan dünya və müasir Azərbaycan gəncliyi”

viyyat festivalı keçirilib”.

Gənclər və idman nazirliyinin sektor müdiri Fuad Babayev nitqində bildirib ki, Azərbaycan gündən-günə inkişaf edir və özünün sürətli inkişaf dövrünü yaşayır: “Ölkənin bütün sahələrində əldə olunan uğurlu nəticələr və müvəffəqiyyətlər gənclər sahəsində də öz əksini tapır. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti Azərbaycan Prezidenti İlham Əliyevin diqqəti və dəstəyi ilə öz uğurlu nəticələrini verməkdədir. Bu gün, qürurla demək olar ki, Azərbaycan Gənclər Siyasəti dünyada uğurlu bir təcrübə kimi tanınır. Bu da ölkədə gənclər sahəsində görülən işlərin strateji və planlı şəkildə aparılmasının nəticəsidir”.

“İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov vurğulayıb ki, gənclərin təhsili üçün ölkədə atılan addımlar göz önündədir: “Biz Cocuq Mərcanlıya getdiyimiz zaman məktəblilər üçün yaradılan yüksək şəraiti gördük və bu o deməkdir ki, nəinki paytaxtda, ucqar bölgələrimizdən tutmuş cəbhə bölgəsinə yaxın ərazilərə qədər bu günün məktəblisi üçün yaradılan şərait, gələcəkdə onların sağlam, savadlı gənc kimi yetişməsi ölkə rəhbərinin diqqətindədir.

Gənclər üçün əlverişli mühitin, şəraitin yaradılması üçün atılan addımlar sırasında 2005-2009-cu və 2011-2015-ci, 2017-2021-ci illəri əhatə edən “Azərbaycan gəncliyi” dövlət proqramlarını qeyd edə bilərik. “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı Prezidentin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilib, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsasən hazırlanıb. Dövlət Proqramının məqsədi isə Azərbaycan Respublikasında gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir”.

Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin könüllülər üzrə koordinatoru Tural Hümbətov isə qeyd edib ki, Azərbaycanın bu günə qədər ev sahibliyi etdiyi beynəlxalq səviyyəli tədbirlər dövlətimizin, uyğun olaraq fəaliyyət göstərən nazirliklərimizin əməyi ilə yanaşı, könüllülük qrupunun dəstəyi ilə də ərsəyə gəlir: “İdarəetmə prinsipindən könüllülük prinsipinə gəlib çıxıb. Bu da ondan xəbər verir ki, Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası özünü doğruldur. Bizim arxamızda güclü Azərbaycan dövləti dayanır. Belə olduqda, təbii ki, biz gənclərin də üzərinə böyük məsuliyyət düşür”.

Azərbaycan Gənclərinin Avropaya İnteqrasiya Təşkilatının sədri Lalə Mehdiyeva deyib ki, ölkə başçısının siyasəti nəticəsində həyata keçirilən sərəncamlar, dövlət proqramları sırf dövlətçiliyimizə sadiq, vətənpərvər, yüksək intellek sahibi, dünyagörüşlü gənclərin yetişməsinə gətirib çıxarır: “Dövlət başçısı İlham Əliyevin Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə göstərdiyi diqqət, onların sosial müdafiəsinin gücləndirilməsinə, o cümlədən onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına yönələn bir neçə fərman və sərəncam imzalaması nəinki gənclərə eyni zamanda xalqımızın bütün təbəqələrinə qarşı qayğının bariz nümunəsidir. Bu gün Azərbaycanda bir gəncin uğurlu gələcəyi üçün hər bir şərait vardır”.

Azərbaycan gənclərinin kifayət qədər aktiv, yenilikçi olduğunu deyən Azərbaycan Tələbə Gənclər Təşkilatı İttifaqının sədr müavini Ramin Həbibzadə qeyd edib ki, ölkə gəncləri dövlətimizi beynəlxalq arenalarda kifayət qədər təmsil etməyi bacarırlar: “Azərbaycan gənci anlayışı bu gün ən yaxşı nöqtəsindədir. Bu anlayışa baxdıqda, gənclərimizin kifayət qədər ağıllı, savadlı, müasir dünyanın çağırışlarına cavab verəcək şəkildə ölkəmizi təmsil edirlər. Təbii ki, bu da birbaşa ölkədə həyata keçirilən gənclər siyasətinin uğurudur. Ölkəmizin bu sahədə digər uğuru gənclər siyasətinin dünyada model kimi qəbul olunmasıdır. Gənclər siyasətimiz digər ölkələr tərəfindən öyrənilir, qazanılan uğurlarımız başqa dövlətlər tərəfindən tətbiq edilir”.

Tədbirdə digər çıxış edənlər də mövzu ətrafında fikirlərini bildiriblər. Onlar Azərbaycanda aparılan uğurlu gənclər siyasətindən danışaraq qeyd ediblər ki, ölkəmizdə gənclərin inkişafı üçün dövlət tərəfindən hər bir şərait yaradılıb. Bu gün Azərbaycan gəncləri beynəlxalq arenada ölkəmizi uğurla təmsil edilir. Gənclərimiz ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayırlar. Dəyirmi masa müzakirələrlə davam edib.

(Ardı var)

**Ceyhun Rasimoğlu**

# İslahatlar mətbuatın inkişafına xidmət edəcək

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib və bu iclasda digər məsələlərlə yanaşı, çap mediası ilə bağlı müzakirələr aparılıb və müəyyən qərarlar qəbul edilib. Qəbul edilən qərarlardan biri də budur ki, KİVDF tərəfindən maliyyə yardımı alan qəzetlərin tirajı minimum 5 min olmalıdır. Belə ki, əvvəl bu tələb 2500 idi.***

Eyni zamanda, qəzetlərin yayımının mindən (1000) iki minə (2000) çatdırılması barədə də qərar qəbul olunub. Bu baxımdan, hansı qəzetlər qoyulan bu tələblərə uyğun gələcəksə, onlara maliyyənin ayrılması davam etdiriləcək. Bu yenilik və dəyişiklik təbii ki, qəzetlərin inkişafına, Azərbaycan maraqlarının dünyaya çıxarılmasına hesablanıb. Amma müxalifət qazanının dibini yalayan və onların sifarişi ilə fəaliyyətlərini quran bəzi sosial şəbəkə istifadəçiləri hay-küy salır və ajiotaj yaratmağa çalışırlar. Söhbət etdiyimiz müsahiblərimiz isə bu cür hay-küyün əsassız olduğunu və bu cür proseslərin qaldırılması ilə çirkin niyyətlərini reallaşdıra bilməyəcəklərini söylədilər.

## Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: “KİV-lər inkişafın yeni mərhələsinə qədəm qoyur”

- Azərbaycan dövləti o dövlətlərdəndir ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətə uyğun olaraq, KİV-lərin inkişafı üçün düşünülmüş bir proqram həyata keçirilir və bu proqram da öz nəticəsini verir. Azərbaycanda KİV-lər peşəkarlaşıb və ictimai rəyi nəzarətdə saxlamağı bacarırlar. Yeni Azərbaycan ictimai rəyi KİV-lər tərəfindən sabit şəkildə qorunub-saxlanılır. İndi bu, keyfiyyətcə yeni bir mərhələyə daxil olur. Artıq yeni dövrün yeni tələblərinə əsasən, Azərbaycan həqiqətlərinin dünyaya çıxarılmasına ehtiyac var. Dünyaya çıxış televiziyalar və qəzetlər vasitəsi ilə mümkün deyil. Çünki rəsmi prosedurlar tələb olunur. Amma internet vasitəsi ilə, heç bir prosedur olmadan dünyaya çıxmaq olur. Ona görə də, Azərbaycan Respublikasının Prezidenti Yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondu yeni strategiya hazırlayır ki, bu, onlayn KİV-lərin maliyyələşməsi ilə bağlıdır.



Onlayn KİV-lər həm yerli ictimai rəyin qorunmasında, həm də Azərbaycan həqiqətlərinin dünyaya çıxmasında böyük rol oynayacaqlar. Sadəcə, düşmən qüvvələr yeni strategiyanın olmasını istəmirlər. Onlar görürlər ki, indiyə qədər Azərbaycan dövləti maliyyə vəsaiti qoydu və KİV-lər peşəkarlaşdı, daxili ictimai rəyi sabit saxlaya bildilər, informasiya məkanını qorumağı bacardılar. İndi KİV-lər nəinki ölkə içində informasiya məkanını qoruyacaqlar, həm də dünyaya çıxacaqlar və dünyada ictimai rəyi öz xeyirlərinə dəyişəcəklər. Buna görə də, artıq işa olunan qərəzli dairələr əndişələnir, narahat olurlar və hay-küy salmaqla qarışıqlıq salmağa çalışırlar.

## “Palitra” qəzetinin baş redaktoru Namiq Əliyev: “Tədbirlər mətbuatımızın daha yüksək səviyyədə çap olunmasına hesablanıb”

- Bu məsələ ilə bağlı ajiotaj yaratmağa ehtiyac yoxdur. Çünki mətbuat sahəsində islahatların aparılmasına ehtiyac var.



Mən də KİVDF-nin xətti ilə dəfələrlə qonşu dövlətlərdə, o cümlədən, Türkiyədə olmuşam. Orda mətbuatın çapına, xüsusən də, tərtibatına və rənginə diqqət edilir. Bu baxımdan, bəzi məsələlər var ki, biz onlardan geri qalırdıq. Dəfələrlə müzakirələrdə fondun rəhbəri deyirdi ki, bizim də mətbuat inkişaf etməlidir, dünya standartlarına uyğunlaşmalıyıq. Nəzərdə tutulan tədbirlər mətbuatımızın daha yüksək səviyyədə çap olunmasına və daha keyfiyyətli formatda təqdim olunmasına hesablanıb. Dünyadan geri qala bilmirik. Azərbaycan iqtisadiyyatı inkişaf edir, sosial sahədə böyük uğurlarımız var, amma çap mətbuatı geridə qalıb. Bir qəzet rəhbəri olaraq, fikirləşirəm ki, mətbuatda irəliləyiş olmalıdır, işimizi dünya standartlarına uyğun qurmalıyıq. Bir daha qeyd edirəm ki, bu kimi islahatlar, irəli sürülən şərtlər mətbuatın inkişafına xidmət edəcək. Çünki istək, mətbuatın daha yeni, keyfiyyətli mətbuatın qurulmasına hesablanıb. Hesab edirəm ki, bu islahatların müsbət nəticələrini az sonra görə biləcəyik.

## “Olaylar” qəzetinin baş redaktoru Yunus Oğuz: “Faktiki olaraq, onlayn media çap mətbuatını üstələyib”



- Bizim fondla müqaviləmiz var. Ona görə də, biz o müqaviləni yerinə yetiririk. Yeni şərtlər qoyulur, yeni şərtlər bizi qane etməsə, ya biz özümüz müstəqil çıxacağıq, ya da dayanacağıq. Bu, hələ martın sonundan bilinəcək. Ərizə verəcəyik, verməyəcəyik və yaxud fonda ehtiyacımız olacaq, olmayacaq, özümüz müstəqil çıxacağıq, çıxmayacağıq, bunlar aprelin 1-də müəyyənləşəcəkdir. Biz hazırda çıxırıq. İndi Azərbaycanda iki əsas məsələyə diqqət verilir. Biri siyasi məhbuslardır, digəri isə qəzetlərdir. Bundan istifadə edən, bəzi məkrli qüvvələr mənasız hay-küy salıb, deyirlər ki, görürsünüz, qəzetləri də bağlayırlar. Qəzet əməkdaşları özləri qərar verəcəklər ki, biz dayanırıq, ya dayanmırıq, yaxud fonda ehtiyacımız var və ya yoxdur, çıxırıq və ya çıxmırıq. Bu da normal bir haldır. İndi zaman da dəyişib. Deyək ki, sayta çox tutarlı bir xəbər qoymuşuq, o xəbər 24 saatdan sonra qəzetə qoyulacaq. Yəni 24 saat vaxt itkisidir. Faktiki olaraq, onlayn media çap mətbuatını üstələyib. Bunu da nəzərə almaq lazımdır.

**GÜLYANƏ**

# Bəhruz Quliyev: "Gəncliyin gücünə, enerjisinə bütün dövrlərdə ehtiyac var"



"Azərbaycan Prezidenti İlham Əliyevin gənclərlə görüşü zamanı şəxsi həyatı ilə bağlı mühüm məqamları paylaşması onlara stimul verməklə yanaşı, eyni zamanda gənclik üçün bir nümunədir". Bu fikirləri SİA-ya açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. O bildirib ki, Prezident İlham Əliyev gənclərlə görüşündə SSRİ rəhbərliyində böyük nüfuz sahibi olan Ulu Öndər Heydər Əliyevin sonradan Sovetlər İttifaqının düşməninə çevrilməsi və bunun nəticəsində problemlər yaşadığını gənclərə səmimi şəkildə etiraf etdi: "Dövlət başçısı pedaqoji fəaliyyətlə məşğul olduğunu və Ulu Öndərin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi mühüm dövlət vəzifəsindən uzaqlaşdırıldıqdan sonra ailəsinə qarşı mənfi münasibət göstərildiyini, işsiz qaldığını gənclərlə bölüşdü. Prezident İlham Əliyevin çətin zamanlarda öz iradəsi hesabına çıxış yolu tapması indiki gənclərimiz üçün örnəkdir".

Prezident İlham Əliyevin gənc olaraq, 41 yaşında Azərbaycana rəhbərliyə başladığını xatırladan siyasi ekspert deyib ki, Azərbaycan gəncliyi 2003-cü ildə hakimiyyətə gələn dövlət başçısı ətrafında cəmləşərək Cənab Prezidenti gənclərin lideri kimi qəbul etdi və əsası Ulu Öndər tərəfindən qoyulan uğurlu siyasətin yanında olduğunu göstərdi: "16 ildir gənclərin dostu olan Prezident gənclərlə görüşü zamanı etdiyi səmimi etiraflarla nümunəvi yanaşma ortaya qoydu".

B.Quliyev söyləyib ki, dövlət başçısının görüş zamanı səsləndirdiyi "Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər" fikri gənclərə heç nədən çəkinməmək, ailə, dövlət, dövlətçilik üçün çalışmaq, milli ruhda böyümək, vətənpərvər övlad kimi yetişmək istiqamətində mühüm mesaj idi".

Müstəqil Azərbaycanın xoşbəxt gəncliyinin olduğunu deyən ekspert deyib ki, bu gün ölkə gəncliyi milli ruh, milli kimliyə malikdir: "Azərbaycan gəncliyi ötən dövrlərlə müqayisədə bu gün daha çox diqqət, qayğı ilə əhatə olunub. Ölkə başçısının görüş zamanı gənclərimizin işlə təmin olunması ilə bağlı həm dövlət, həm də özəl sektorlara verdiyi tövsiyyə Azərbaycanda gəncliyə göstərilən diqqətin bariz göstəricisidir. Azərbaycan gəncliyi onlara göstərilən bu diqqətdən yararlanmalı, öz fəaliyyətləri ilə müstəqil dövlətçiliyimizin möhkəmlənməsində öz potensialını, enerjisini ortaya qoymalıdırlar. Gəncliyin gücünə, enerjisinə bütün dövrlərdə ehtiyac var. Çox sevindiricidir ki, bu gün gənclik enerjisi müstəqil Azərbaycanın inkişafı istiqamətində, güclü dövlətin liderin rəhbərliyi ətrafında cəmlənərək dövlət, xalq uğrunda mübarizədə istifadə olunur".

Prezident İlham Əliyevin söylədiyi kimi Azərbaycan gəncliyinin sağlam ruhda böyüdüyünü dilə gətirən B.Quliyev qeyd edib ki, müstəqil dövlətin bəhrəsi olan Azərbaycan gəncliyi bu gün müxtəlif tribunalarda, yarışlarda ölkəni yüksək səviyyədə təmsil edirsə, bu gənclərimizin peşəkar, iradəli, vətənpərvər olmasından xəbər verir: "Bildiyiniz kimi gənclərimiz Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutub. Azərbaycan gəncliyinin qazandığı bu uğurlar ölkəmizdə həyata keçirilən gənclər siyasətinin düzgün aparıldığını göstərir. Qanunlar, həyata keçirilən dövlət proqramları, layihələr Azərbaycan gəncliyinin inkişafında çox mühümdür. Amma bu uğurların mərkəzində liderin şəxsi iradəsi dayanır. Məhz bu iradənin nəticəsidir ki, bu gün müstəqil Azərbaycan dövlətin güclənməsində gənclik enerjisindən istifadə olunur".

*Nailə Məhərrəmova*

# Dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilir



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində əməliyyat-axtarış və qoşun tədbirləri uğurla davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 21-də Xidmətin Sərhəd Qoşunlarının "Şəki" sərhəd dəstəsinin xidməti ərazisində Oğuz rayonunun Filfilli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində qaya daşlarının altında gizlədilmiş, istifadəyə yararlı "TOZ-8-01" markalı yivli silah aşkarlanıb.

Yanvarın 30-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəki" sərhəd dəstəsinin xidməti ərazisində Şəki rayonunun Baş Zəyzid kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Şəki rayonunun Baş Zəyzid kənd sakinləri 1971-ci il təvəllüdlü Ağaşirinov Hümmət Bəhram oğlu, 1989-cu il təvəllüdlü Kərimov Məhərrəm Nadir oğlu, 1994-cü il təvəllüdlü Musayev Araz Bəylər oğlu və 1969-cu il təvəllüdlü Kərimov Ələsgər Sabir oğlu qanunsuz ov etdikləri üçün sərhəd rejim pozucusu qismində saxlanılıblar. Onların üzərinə baxış keçirilərkən üç ədəd ov tüfəngi, 32 patron və 2 patron qabı aşkarlanıb.

Yanvarın 29-da saat 13:45 radələrində DSX-nin Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində Qazax rayonunun Sınıqkörpü kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində yerləşən "Qırmızı körpü" tarixi abidəsinin təmir işləri ilə məşğul olan şirkətin fəhləsi, Qazax rayon Hüseynbəyli kənd sakini 1994-cü il təvəllüdlü Sadiqi Adil Valeh oğlundan aksiz markası olmayan 48 blok (qutu) siqaret aşkarlanaraq götürülüb. Araşdırma zamanı həmin tütün məmulatlarının Gürcüstandan Azərbaycan Respublikasına qaçaqmalçılıq yolu ilə gətirildiyi məlum olub. Faktlarla bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Həmişəxanım Novruzova: "Dövlətin şəhid ailələrinə göstərdiyi qayğı razılıq doğurur"



Filosoflardan biri deyib: Doğulmaq təsadüf, ölüm isə zərurətdir. Başqa bir filosof isə ölümü yaşanan həyatın sonunda qoyulan nida işarəsinə bənzədir. Filosofların məntiqi ilə razılaşmamaq mümkün deyil. Lakin şübhəsiz ki, Vətən yolunda həlak olan şəhidlərin ölümü ən şərəfli və ən yüksək mərtəbədə yer tutur.

Fəxri Novruzov 1995-ci ilin fevralında Tərtər rayonunun kəndlərini erməni hərbi birləşmələrinin hücumundan qoruyarkən şəhid olub. Onun qardaşının həyat yoldaşı Həmişəxanım Novruzova öz canını ana Vətən yolunda qurban verən cəsur əsgər haqqında AZƏRTAC-a deyib: "Fəxri lap kiçik vaxtlarından mənim gözlərimin qarşısında böyüyüb. Onun qəlbindəki təəssübkeşlikdən, yurd sevgisindən yaxşı xəbərdar idim. Atalar doğru deyib: niyyətin hara, mənzilin ora. O, Dağlıq Qarabağ hadisələri başlayandan, ermənilərin əsassız torpaq iddialarının ilk günündən özünü çox narahat hiss edirdi. Nankor qonşuların törətdiyi cinayət əməlləri, təcavüzkar hərəkətləri barədə eşitdikcə rahatlıq tapa bilmirdi. Fəxri həmin ağır günlərdə evdə oturmağı heç cür özünə sığışdırmırdı. O, Vətənin çağırışına hay verərək ömrünün ən gözəl illərini torpaqlarımızın bütövlüyünün qorunmasına sərf etdi və bu yolda da öz canını əsirgəmədi".

Həmişəxanım Novruzova Prezident İlham Əliyevin şəhid ailələrinə, onların vərəsələrinə göstərdiyi qayğı barədə də danışıb: "Dövlət başçısının bütün şəhid olmuş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi və onların ailələrinə verilən aylıq müavinətlərin qaldırılması barədə imzaladığı Fərmanlar çox ədalətli və humanist bir addımdır. Həyatını torpaq yolunda qurban verən fədakar oğulların qəhrəmanlığı hər cür hörmət və ehtirama layiqdir. Prezident də belə bir addım atdı və heç də təsadüfi deyil ki, bu cəmiyyətin bütün təbəqələri tərəfindən sosial ədalət nümunəsi kimi dəstəklənir. Fəxrinin qardaşları Rəhim və İbrahim də şəhid ailələrinə dövlət səviyyəsində göstərilən bu qayğını yüksək qiymətləndirirlər".

# 4 ildən sonra regionlarımız necə olacaq?



"Regionların sosial iqtisadi inkişafı ilə bağlı 2019 -2023-cü illəri əhatə edəcək yeni dövlət proqramı 2016-cı ilə Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Strateji yol xəritələri" ilə ahənglik daşıyır. Burada qarşıya qoyulan əsas hədəflər yeni proqramda öz əksini tapıb". Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Ruslan Atakişiyev deyib. O bildirib ki, növbəti 4 il müddətində həyata keçiriləcək proqram regionlarda yeni iş yerlərinin açılmasını, kənd təsərrüfatının eyni innovasiyalar əsasında inkişafı, xüsusilə də yeni texnologiyaların cəlbi ilə intensiv inkişafı təmin edəcək.

Onun sözlərinə görə, regionlarda istehsal prosesi xüsusilə də emal sənayesinin inkişafı, o cümlədən texnoparkların sənaye məhəllələrinin inkişafının genişləndirilməsi hədəfdə duran məsələlərdəndir: "Region şəhərlərinin inkişafı, regionda istehsal olunan məhsulların ixracının genişləndirilməsi, peşə təhsilinin inkişafı və kadrların xüsusilə də regionlarda önə çəkilməsi, sosial təminat məsələsinin gücləndirilməsi də yeni proqramın qarşısında duran əsas məqsədlərdəndir. Növbəti 4 ildə həyata keçirilən işlər nəticəsində regionda turizmin daha da inkişafı, turizm potensialının genişləndirilməsi nəzərdə tutulur. Bundan əlavə yeni proqrama əsasən, regionlararası qeyri-bərabər inkişafın paralel inkişafa gətirilməsi məsələləri önə çəkilməlidir". R.Atakişiyev vurğulayıb ki, yuxarıda sadalanan hədəflərlə bağlı həyata keçiriləcək işlər əhalinin regionlardan paytaxta axının qarşısının alınması, o cümlədən sənayeləşmənin payının artmasına gətirib çıxaracaq: "Biz bilirik ki, Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə artım 47 faiz təşkil edir ki, bunun da əksəriyyəti regionların payına düşür. Hazırda hədəflərdən biri sənayeləşmənin regionlarda payının artırılmasıdır. Görüləcək tədbirlər bu hədəfə çatmağa imkan verəcək".

Ekspert qeyd edib ki, növbəti 4 ildə nəzərdə tutulan işlər regionlarda rəqabət qabiliyyətli məhsulların istehsalının artmasına, eləcə də yeni iş yerlərinin açılmasına səbəb olacaq: "Yeni iş yerlərinin açılması əhalinin adambaşına düşən gəlir səviyyəsinin artması deməkdir. Bu da nəticə etibarı ilə əhalinin rifah halının yaxşılaşmasına təsir edən əsas amildir. Yeni proqram sahibkarlıq, investisiya mühitinin daha yaxşılaşmasına imkan yaradacaq".

Son 15 il müddətində həyata keçirilən dövlət proqramları nəticəsində Azərbaycan regionlarının əhəmiyyətli dərəcədə inkişaf etdiyini deyən R. Atakişiyev qeyd edib ki, əgər bu illəri arasında müqayisə aparsaq, o zaman bölgələrimizdə mühüm dəyişikliklərin şahidi olarıq: "Belə ki, ötən dövr ərzində Azərbaycan regionlarının infrastrukturu tamamilə yenilənib, kəndlər qazlaşdırılıb, yeni suvarma sistemləri qurulub, iş yerləri açılıb. Amma işlər bunlarla yekunlaşmır. Çünki iqtisadiyyat dinamik sahədir və bu sahənin hər zaman inkişafına ehtiyac var".

*Nailə Məhərrəmova*

# Xüsusi qayğıya ehtiyacı olan uşaqların əl işlərindən ibarət sərgi-satış təşkil edilib

Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının qərargahında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və onların ailələrinə yardım İctimai Birliyi tərəfindən reallaşdırılan "Xüsusi qayğıya ehtiyacı olan yaradıcı gənclərin cəmiyyətə tanıdılması" məqsədilə onların sərgilərinin təşkili" layihəsi çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların əl işlərindən ibarət sərgi-satış təşkil edilib.

İki gün davam etmiş sərginin açılış mərasimində çıxış edən "Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və onların ailələrinə yardım" İctimai Birliyinin sədri Vüsalə Kərimova, Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova, YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva və başqaları bildirirlər ki, keçirilən bu layihədə əsas məqsəd uşaqların faydalı əməyə cəlb edilməsi, həyat bacarıqlarının inkişaf etdirilməsi və onların cəmiyyətə inteqrasiyasıdır. Çıxışçılar bu gün Azərbaycanda xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün həyata keçirilən işlərdən, I Vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın bu sahədəki fəaliyyətindən, əldə olunan nəticələrdən və nailiyyətlərdən danışıblar.



Çıxışlardan sonra xüsusi qayğıya ehtiyacı olan balacaların ifa etdikləri rəqslər tədbir iştirakçılarının xüsusi marağına səbəb olub. Sonra sərgiyə baxış keçirilib.

Qeyd edək ki, əl işlərinin satışından əldə olunan vəsait xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyacları üçün sərf ediləcək.

***Rövşən NURƏDDİNOĞLU***



İslahat anonsu: Nədən başlamalı?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Olduqca vacib anons oldu. Xüsusi ilə nəzərə alanda ki, bu islahat proqramı cəmiyyəti neçə illərdir ki, əməllicə düşündürürdü, onda bəzi süründürməçi və neqativ adətlərin "qəbrini qazmaq" üçün əməli işə başlamağın hava-su kimi vacib olduğunu tələffüz etməyə ehtiyac yoxdur. Prezidentin qeyd etdiyi kimi, əsas məqsəd daha çevik və işlək idarəetmə mexanizminə malik olmaqdır. Bu isə, o deməkdir ki, insanları daha rahat və asan, heç bir bürokratiya əngəlinə tuş gəlmədən iş görmələri üçün yeni mərhələ gözləyir. Çevik və bürokratik əngəl maneəsinin olmadığı bir mexanizm-məqsəd budur!***

Bir neçə il öncə, "Asan Xidmət" sistemi işə salınanda, cəmiyyətin necə həyəcan və təəcüblə bunu qarşıladığını hər birimiz, məncə, xatırlayırıq. İnsanlar bu yeniliyin, on illiklər boyu onları əzab-əziyyətə salan bürokratik əngəllikləri tarixin qəbiristanlığına göməcəklərini ağıllarına belə gətirə bilmirdilər. Aylarla bürokratik qapıların arxasında boynunu bükənlər, bir andaca, lap dəqiq desək, cəmi bir neçə dəqiqə ərzində, sənəd-sünəd işlərini yoluna qoyduqları üçün sevinc və təəccüb hisslərini eyni anda yaşayırdılar.

O zaman da yazmışdım, indi də deyirəm: "Asan Xidmət" modeli, gənə kimi cəmiyyətə daraşıb qanını içən süründürməçilik və rüşvət virusuna ölümcül zərbə vurdu. Bu, həqiqətən, belədir. Hansı düşüncə və siyasi baxışa malik olmasından asılı olmayaraq, beyin toxumalarında azacıq vicdan hissi olan istənilən hər kəs bunu ədalətlə etiraf edə bilər. Fakt faktdır. Ədalətli olmaq üçünsə, heç bir partiyaya üzv olmağa ehtiyac yoxdur. Yetər ki, öz vicdanına üzv olasan.

Gəlin açıq danışaq. Üzü sovetlərin kəsə-kəs vaxtlarından bəri, cəmiyyətə gənə kimi daraşmış bürokratiya, rüşvət və laqeydlik kimi ictimai bəlanı insan beyninin dərinliklərindən qoparıb atmaq, onu ictimai vərdişlərdən silmək üçün cəmi bir neçə il gözləmək mümkünsüz məsələdir. Çünki insan beyni hətta zəhərli gülləden də mürəkkəbdir. Ordakı neqativləri tezliklə silib təmizləmək üçün çox iş görmək lazımdır. Pis vərdişlər insan beynindən çox vaxt zəli kimi yapışmağı sevir. Qoparmasan, əbədi qonaq kimi yuva salır beyin hüceyrəsində. Sovetdən qalma strukturlar da bir növ dövlətin yaxasından zəli kimi yapışıb qalıblar.

Həm də unutmayaq ki, şübhə insan beyninə girdiyi andan onu gəmirici kimi necə yeyib bitirirsə, neqativ adətlər də narkotika kimi insan beyninə o dərəcədə hakim olur. Bu cür neqativ vərdişlər üçünsə bürokratik əngəl olan qurum və təşkilatlar "vitamin" rolu oynayır. Eyni funksiyanı daşıyan, eyni məsuliyyəti bölüşən təşkilatlar, vətəndaşları "get-gəl"ə salır, bir neçə dəqiqəyə həll olunmalı sənədləşmələr günlərlə, hətta aylarla yubanır.

Əvəzində vətəndaşlar bu vəziyyətdən bezib "şirinlik" üçün əllərini ciblərinə "minnətə" göndərirlər. Bu vəziyyətdən isə, həm rüşvət və korrupsiya "qidalanır", həm də çevik və operativ icra mexanizmi gedir işinin dalınca. Amma bu dəfə artıq süründürməçilik sistemi gedəcək "işinin dalınca". Özü də birdəfəlik. İslahatın anons deyil, əməli işə çevrilməsi isə asılıdır vətəndaş mövqeyindən. Bəli, açıqdan-açığa. Əgər vətəndaş süründürməçilərə, rüşvətxorlara gülərüz simasını və "şirinlik səxavətini" yenə əsirgəməsə, süründürməçilərə "vitamin" bəxş eləsə, onda bizim qanunla və süründürməçilik olmadan yaşamağımız barədə arzularımız elecənə "Ölülər"dəki qəhrəmanların arzuları kimi ölü qalacaq...

# "Bu gün təhlükəsizlik və ictimai asayiş baxımından Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir"

***"Ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqların müdafiəsi istiqamətində bir sıra mühüm qanunlar qəbul edilmiş və bu sahədə davamlı islahatlar aparılmışdır. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir.***

Qeyd edim ki, ölkə başçısının Sərəncamları ilə təsdiq edilən Gələcəyə Baxış İnkişaf Konsepsiyası və 2016-2030-cu illər üçün Dayanıqlı İnkişaf Məqsədlərindən, eləcə də Strateji Yol Xəritəsindən irəli gələrək, ailə institutunun daha da gücləndirilməsi, gender bərabərliyinin təmin edilməsi, bütün sahələrdə qadınların və qızların, uşaqların hüquqlarının müdafiəsi üçün geniş imkanlar yaranmışdır." Bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Yap.org.az saytına müsahibəsində bildirib. O qeyd edib ki, ölkə rəhbərliyinin böyük dəstəyi ilə həyata keçirilən dövlət siyasətinə uyğun olaraq ailə, qadın və uşaqlarla bağlı bir çox məsələlər öz real həllini tapıb. Dünyada risklərin, təhlükələrin artdığı, qanlı münaqişələrin, hərbi qarşıdurmaların geniş vüsət aldığı bir şəraitdə Azərbaycanda insanlar üçün sabitlik, təhlükəsizlik şəraiti təmin edilmişdir. Bu gün təhlükəsizlik və ictimai asayiş baxımından Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir:

"Ölkə başçısının yürütdüyü siyasət Azərbaycan xalqının maraqları üzərində qurulub və bu maraqları təmin etmək üçün bütün imkanlar səfərbər olunur. Çox önəmli faktdır ki, hər il ölkəbaşçısının imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlüdür. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Bu isə insanların bütövlükdəcənab prezident İlham Əliyevin siyasətinə və sözünə olan inam və etimadını daha da gücləndirir. Nəticədə xalqla hökumətin sıx birliyi yaranmışdır.



Əhalinin yarısını, bəzi ölkələrdə isə hətta yarıdan çoxunu qadınlar təşkil etdiyindən yeni inkişaf gündəliyi, məhz qadın hüquqlarının müdafiəsinin daha da gücləndirilməsinə əsaslanıb. Azərbaycanda hər zaman qadının ailədə, işdə, həm də cəmiyyətdəki layiqli yer tutması dövlətimizin prioritet sahəsidir.Qadınlarımız, gənc qızlarımız dövlətin yaratdığı bütün imkanlardan yararlanır, sərbəst təhsil alır, peşə səviyyəsini artırır, ictimai-siyasi proseslərdə iştirak edir, siyasət, sahibkarlıq kimi sahələrdə də geniş təmsil olunurlar. Səhiyyədə, təhsildə, elmdə, orduda, idmanda, milli təhlükəsizlik və hüquq mühafizə orqanlarında çalışırlar. Bu isə Azərbaycan Hökuməti və Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən aparılan güclü dövlət qadın siyasətinin məntiqi nəticəsidir."

Komitə sədri qeyd edib ki, qadınların peşə hazırlığı kurslarına cəlb olunması, onların bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübə qazanmaları üçün maarifləndirici tədbirlərin keçirilməsinin böyük əhəmiyyəti var:

"Artıq bizdə belə bir təcrübə var ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən qadınlar üçün imkanlar yaradıldıqda və onlara stimul verdikdə çox müsbət nəticələrə nail olmaq mümkündür. Və bu gün fəaliyyət göstərən Qadın Resurs Mərkəzləri eyni zamanda, 11 regional Uşaq və Ailələrə Dəstək Mərkəzləri buna əyani misaldır. Qeyd etmək lazımdır ki, 2018-ci ildə biz Qadın Resurs Mərkəzlərinin sayını 8 - ə çatdırmışıq. Bu Mərkəzlər Qusar, Zaqatala rayonları və Bakının Xəzər rayonlarında yaradılıb. Ümumiyyətlə, 2011-2018-ci illər ərzində təlim və tədbirlərdə iştirak edən qadınların və gənclərin sayı 5 500 nəfər olub. Keçən dövrdə 102 qadın sahibkarlıq fəaliyyətinə başlayıb, 50-ə yaxın qadın əlavə işlə təmin edilib.Regional Uşaq və Ailələrə Dəstək Mərkəzlərin fəaliyyəti gündən-günə genişlənir və yerli əhali real nəticələri görür. İl ərzində Mərkəzlərin fəaliyyətindən iyirmi mindən çox (20 748) vətəndaş bəhrələnmişdir. Ümumilikdə 6 il ərzində Mərkəz fəaliyyətindən 110385 nəfər faydalanmışdır. Buna görə də Mərkəzlərin fəaliyyətini təkmilləşdirmək məqsədilə əməkdaşların peşəkarlığının artırılması ilə yanaşı, maddi-texniki bazası da intensiv şəkildə möhkəmləndirilir."

# Milli Televiziya və Radio Şurasının növbəti iclası keçirilib

Fevralın 5-də Milli Televiziya və Radio Şurasının növbəti iclası keçirilib. Şuradan AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycanda özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli Sərəncamına əsasən Azərbaycanda fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş prezidentin ehtiyat fondundan Milli Televiziya və Radio Şurasına ayrılmış 3.0 (üç) milyon manat vəsaitdən hər bir özəl ümumrespublika televiziya yayımçısına ("Lider TV", "Xəzər TV", "ATV", "ARB 24" MMC, "Space TV") 600 000 (altı yüz min) manat ayrılması barədə qərar qəbul olunub.

İclasda, həmçinin İctimai Televiziyanın Full HD formatında yüksək keyfiyyətli rəqəmsal yayımının tətbiqi ilə əlaqədar olaraq yeni yayım paketinin yaradılması (Bakı şəhəri və Abşeron yarımadası ərazisində 34-cü TV yayım kanalı) barədə qərar qəbul edilib.

# Qanunsuz aksiyaların təşkili üçün yollanan pullar və Əli Kərimli...



Dünən Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilmiş növbəti baxış iclasında Azər Adamov, Nazim Hüseynov və Ceyhun Şabanov şahid qismində dindirilmişlər. SİA-nın verdiyi məlumata görə, məhkəmə iclasında KİV-lərin nümayəndələri iştirak etmişlər.

AXC hakimiyyəti dönəmində Gədəbəy rayon İcra Hakimiyyətinin başçısı işləmiş Saleh Rüstəmovun qohumu Azər Adamov məhkəmədə ifadəsində göstərib ki, 2018-ci ilin fevralında Vidadi Rüstəmli Gürcüstanda olarkən ona "whatsapp" vasitəsi ilə tanımadığı bir mobil nömrəni yazaraq xahiş edib ki, həmin nömrədə olan adamda pul var, həmin pulu götürsün. Vidadinin telefonda göndərdiyi mobil nömrəyə zəng edib həmin şəxslə görüşərək 1000 manat pulu, növbəti dəfə isə 800 manat pulu ondan götürüb Vidadi Rüstəmliyə verib.

Nazim Hüseynov isə məhkəmədə bildirib ki, ötən il mayın əvvəllərində axşam saatlarında Şəmkir rayon polis şöbəsinin yanından keçəndə polislər ona əməliyyat tədbiri keçirdiklərini bildirib onu hal şahidi kimi iştirak etməyə dəvət ediblər. O da buna razılıq verib və polislərlə birlikdə Şəmkirdə İstiqlal parkının yaxınlığına gediblər. Təxminən 20 dəqiqə sonra polislər Saleh Rüstəmova yaxınlaşıb özlərini təqdim edib onun narkotiklə məşğul olmasına dair məlumatlar əldə etdiklərini bildiriblər. Saleh Rüstəmov polislər ondan qanunsuz əşya və maddə olub-olmadığını soruşan zaman əynindəki gödəkçənin cibindən selofanda olan heroini təqdim edib. Hal şahidi Nazim Hüseynov Saleh Rüstəmova qarşı hər hansı təzyiq göstərilmədiyini, S.Rüstəmovun hər hansı etiraz bildirmədiyini vurğulayıb.

Ceyhun Şabanov məhkəmədə ifadə verərkən Nazim Hüseynovun dediklərini təsdiq edib, Saleh Rüstəmovun gödəkçəsinin cibindən heroini çıxarıb polislərə təqdim etdiyinə hal şahidi olduğunu bildirib. Məhkəmənin növbəti iclası fevralın 6-na təyin edilib.

## Ağcabədidə "Gəncliyin səsi" adlı tədbir keçirilib

YAP Ağcabədi rayon təşkilatı 2 Fevral Gəncləri Günü münasibətilə Ü.Hacıbəyli adına Ağcabədi şəhər "Qarabağ" Muğam Mərkəzində "Gəncliyin səsi" adlı tədbir keçirib. Tədbirdə müstəqil Azərbaycan dövlətinin Qurucusu və Yaradıcısı, Ulu ÖndərHeydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.





Tədbir iştirakçıları əvvəlcə Muğam Mərkəzinin foyesində təşkil edilmiş gənc rəssam Şəbnəm İbadovanın fərdi sərgisi ilə tanış olublar. Sonra tədbirə "N" saylı hərbi hissənin orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə start verilib.

Tədbirdə YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri Radə Qafarova, "N" saylı hərbi hissənin əsgəri Mirhadi Səmidzadə, YAP Ağcabədi rayon təşkilatının məsləhətçisi Nəriman Orucov, Ağcabədi rayon icra hakimiyyətinin baş məsləhətçisi Vüsalə Məmmədova və YAP Ağcabədi rayon təşkilatının sədr müavini Teymur Rəhimov çıxış edərək, gəncləri təbrik edərək, ölkəmizdə gənclərə olan diqqət və qayğıdan söz açıblar.

Çıxışlarda vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev və Onun siyasi xəttinin uğurlu davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev gənclərə daim diqqət və qayğı göstərmiş, onların fəal bir vətəndaş kimi formalaşması üçün lazım olan münbit şəraitin yaradılmasına önəm vermişdir.

Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup gəncə Gənclər Günü münasibəti ilə YAP Ağcabədi rayon təşkilatının fəxri fərmanları təqdim olunub.

Tədbir Üzeyir Hacıbəyli adına Ağcabədi şəhər Qarabağ Muğam Mərkəzinin və "N" saylı hərbi hissənin əsgərlərinin ifasında bədii hissə ilə davam etdirilib.

***Zümrüd BAYRAMOVA***

## Erməni rejissor ölüm aclığına başlayacağını anons etdi

*<u>Ovannes Qalstyan:</u> "Fevralın 7-dən başlayaraq, sudan da imtina edəcəyəm"*



Ermənistan parlamentinin "Çiçəklənən Ermənistan" fraksiyasından olan deputatı Naira Zoqrabyan kinorejissor, "Parallels Film Production"un təsisçisi və direktoru Ovannes Qalstyanın aclıq aksiyasını dayandırmağa çağırıb. Bu barədə "aysor.am" saytı yazır.

"Kinorejissor Ovannes Qalstyan yenidən müddətsiz aclıq elan edib. Mənim, onun aclığı dayandıraraq, hələ ki, mövcud olan mədəniyyət nazirliyi və Ermənistanın milli kino mərkəzi ilə yenidən müzakirələrə başlaması çağırışlarım nəticəsiz qalıb" deyə erməni deputatı bildirib.

N.Zoqrabyan, bir müddət əvvəl, mədəniyyət nazirinin müavini Nazeni Kazaryanla danışdığını bildirib və qeyd edib ki, nazir müavininin bu məsələdə az da olsa, günahı yoxdur. Lakin aclıq edən rejissor əsas günahkar kimi, məhz nazirliyi görür.

### "Hakimiyyət nə qədər antihumanist olacaqsa, mənim mübarizəm daha ağır olacaq"

Xatırladaq ki, kinorejissor O.Qalstyan maliyyə xərclərinin kəsilməsi nəticəsində, yarımçıq qalmış "Nənəmin saçları" adlı filminə görə, aclıq etdiyini bildirib və hətta ölüm aclığına qədər gedəcəyini deyib.

Sputnik-Armeniya da kinorejissorun aclıq aksiyası ilə bağlı məlumat yayıb.

Rejissor bildirib ki, aclıq aksiyasını o zamana qədər davam etdirəcək ki, "Mənim addımım" fraksiyasının rəhbəri və eks-mədəniyyət naziri Lilit Makunts komissiyanın keçirdiyi iclasın audioyazısını ictimailəşdirsin. Belə ki, həmin iclasda o, vəd edilmiş maliyyənin ayrılması ilə bağlı qərar verib. Lakin həmin qərardan sonradan imtina edilib.

"Fevralın 7-dən başlayaraq, mən sudan da imtina edəcəyəm. Mən sona qədər getmək barədə qərar vermişəm və başqa həll yolu görmürəm" deyən erməni kinorejissor sayta açıqlamasında əlavə edib ki, hakimiyyət nə qədər antihumanist olacaqsa, o, daha radikal vasitələrə əl atacaq: "Mən, bütün radikal vasitələrə əl atacağam. Hakimiyyət nə qədər antihumanist olacaqsa, mənim mübarizəm daha ağır olacaq". Qalstyan yaxın vaxtlarda həmkarlarının da aclıq aksiyasına qoşulacağını bildirib və növbəti tələblərini də irəli sürüb. Belə ki, o, kino sferası sahəsində dövlət modelinin dəyişdirilməsi ilə bağlı təkliflərinin də olduğunu bildirib və bunun üçün hökumət binasına yürüş edəcəyini, təkliflərini Nikol Paşinyana yazılı surətdə çatdıracağını bildirib.

***Rövşən RƏSULOV***

## Binəqədi rayonunda "Hər ağac bir nəfəsdir" adlı layihə reallaşdırılıb

***Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı gənclər birliyinin təşkilati dəstəyi ilə fevralın 1-dən 5-dək "Hər ağac bir nəfəsdir" adlı layihə reallaşdırılıb.***





Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında keçirilən açılış mərasimində tədbiri giriş sözü ilə açan layihə rəhbəri Yeganə Əsgərli çıxışında Gənclər Fonduna gənclərə göstərdiyi dəstək üçün minnətdarlığını bildirib. Çıxış edən YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədr müavini Nigar Məmmədova layihə rəhbərini təbrik edib və bu kimi layihələrin gənclər üçün önəmini vurğulayıb.

Çıxışlardan sonra ekoloji mövzuda ilk təlim keçirilib. Tədbirin sonunda hər bir iştirakçıya sertifikatlar təqdim olunaraq, xatirə şəkli çəkdirilib.

Fevralın 4-də Azərbaycan Dövlət İqtisad Universitetində Azərbaycan Gənclər Fondunun maliyyə və YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin təşkilati dəstəyi ilə "Hər ağac bir nəfəsdir" layihəsinin növbəti tədbiri keçirilib. Tədbirdə UNEC professor heyəti, UNEC-in Distant, Qiyabi və Əlavə Təhsil Mərkəzinin Tələbə Elmi Cəmiyyətinin üzvləri (TEC) və iqtisadiyyat fakültəsinin rəhbərliyi, UNEC-in tələbə təşkilatlarının rəhbərləri və təşkilat fəalları iştirak ediblər.

Tədbiri giriş nitqi ilə açan UNEC-in Distant, Qiyabi və Əlavə Təhsil Mərkəzinin qiyabi təhsil şöbəsinin müdiri Yalçın Köçərli ekoloji tarazlığın qorunub-saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi kimi ümumbəşəri problemlər haqqında məlumat verib.

İqtisadiyyat fakültəsinin dekanı dosent Asiman Quliyev, beynəlxalq iqtisadiyyat kafedrasının müdiri professor İrşad Kərimli çıxış edərək, ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə böyük yer verildiyini bildirib.

Fevralın 5-də "Hər ağac bir nəfəsdir" layihəsi çərçivəsində növbəti təlim keçirilib və layihənin bağlanış mərasimində iştirakçılara sertifikatlar təqdim olunub.

***ZÜMRÜD BAYRAMOVA***

### Düşmən tərəfindən saxlanılmış Elnur Hüseynzadə Şuşadan Ermənistana aparılıb




Ermənistan hərbçiləri tərəfindən işğal edilmiş Dağlıq Qarabağ ərazisində 2017-ci il fevralın 1-də saxlanılmış və separatçı rejimin qeyri-qanuni məhkəməsi tərəfindən "azadlıqdan məhrum edilmiş" Azərbaycan Respublikasının vətəndaşı, 1995-ci il təvəllüdlü Hüseynzadə Elnur Elman oğlu saxlanıldığı Şuşa şəhərindən fevralın 2-də Ermənistan Respublikasına aparılıb. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, bu barədə aidiyyəti beynəlxalq təşkilatlardan məlumat daxil olub. Saxlanıldığı vaxtdan etibarən E.Hüseynzadənin azad edilməsi ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırılıb və hazırda bu istiqamətdə zəruri işlər aparılır.

# Müxalifətin dağılması labüddür

**Son günlərin diqqətçəkən mövzulardan biri də, bir-birinə düşmən kəsilən müxalif partiya sədrlərinin bir araya gələrək, görüşlər keçirmələridir. Bir neçə gün əvvəl, xarici ağalarına müsbət görüntü nümayiş etdirmək üçün İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli görüşərək ümumi bir birliyin və birgə aksiyaların keçirilməsi ətrafında müzakirələr aparıblar. Söhbət etdiyimiz müsahiblərimiz bir-birinə düşmən kəsilən bu qüvvələrin birgə fəaliyyət göstərmələrinin mümkünsüz olduğunu bildirdilər.**

## "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Müxalifətin dağılması qaçılmazdır"



- Azərbaycanın müstəqillik tarixinin siyasi nəzəriyyəsi göstərir ki, adları çəkilən bu qüvvələr, xüsusilə də, AXCP və Müsavat yarandığı gündən bir-biri ilə rəqabətdə olublar. Hətta həmin qüvvələrin hakimiyyətdə olduqları dövrdə də bir-birləri ilə yola getməyiblər. Bu baxımdan da, onların bir ayara gələrək, hər hansı bir birlikdə olmaları mümkün deyil. Demək olar ki, biz onların təşəbbüsü ilə meydana gələn müxtəlif siyasi birliklərini görmüşük. Eyni zamanda da, onların acınacaqlı aqibətlə üzləşmələrini də seyr etmişik. Bir sözlə, adları çəkilən qüvvələrin bu birlikləri heç vaxt uğur qazana bilməyib. Ümumiyyətlə, partiya liderləri arasında olan intriqalar, fikir ayrılıqları onların bir araya gəlmələrinə imkan verməyib və bundan sonra da verməyəcək. Real odur ki, müxalifət dağılmağa məhkumdur.

## Ədalət partiyasının aparat rəhbəri Mütəllim Rəhimli: "Müxalifətin parçalanmasında İsa Qəmbər və Əli Kərimlinin rolu böyükdür"



- Birmənalı şəkildə, qeyd etmək lazımdır ki, Azərbaycan müxalifətinin parçalanmasında İsa Qəmbər və Əli Kərimlinin rolu böyükdür. Bu iki "liderin" ambisiyası Azərbaycan müxalifətinin birləşməsinə imkan vermir. İddiaların böyüklüyü ona gətirib çıxarıb ki, hər iki partiyadan da zaman-zaman qopmalar baş verib. Belə baxanda, bu iki partiya arasında ideoloji-siyasi ayrı-seçkilik yoxdur və bunların proqramları və qarşılarına qoyduqları məqsədlər də bir-birinə uyğundur. Sadəcə olaraq, adları çəkilən liderlərin ambisiyaları fərqlidir. Nə qədər ki, bu iki təşkilatın başında həmin şəxslər dayanacaq, onlar arasında heç vaxt ortaq mövqe əldə olunmayacaq. Eləcə də, müxalifət düşərgəsində əməkdaşlığın iflasa uğradığını müşahidə edəcəyik.

## "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Müxaliflər arasında pula hərislik var"



- Bu gün Azərbaycan cəmiyyətində ciddi müxalif qüvvənin yetişməməsi xaricdəki bəzi anti-Azərbaycan qüvvələri narahat edir. Çünki istənilən ölkələrdə demokratiya pərdəsi altında Qərb dairələri hakimiyyətlərə, məhz həmin siyasi müxalif qüvvələr vasitəsilə təzyiq edir və istədiklərini qoparmağa nail olurlar. Azərbaycanda isə Qərbin istəklərini reallaşdırmaq gücündə siyasi qüvvə yoxdur. Bunun iki səbəbi var: Birincisi, indiki iqtidarın Ulu Öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan, Cənab Prezident tərəfindən uğurla davam etdirilən siyasi kursun xalqın istək və arzularına uyğun olması və xalqın mütləq əksəriyyətinin onu dəstəkləməsidir. İkinci səbəb isə, mövcud müxalifət düşərgəsini inhisara alan köhnə qurdlar bura yeni, sağlam ruhlu qüvvələrin daxil olmasına qırmızı işıq yandırıblar. Nəticədə, xalqdan dəstək ala bilməyən əbədi müxalifətimiz Qərbdən aldıqları sifarişləri yerinə yetirməkdə acizdir və bunu Qərbdəki həmin anti-Azərbaycan qüvvələr də yaxşı bilir. Odur ki, hər vasitə ilə onları bir araya gətirmək, birləşdirib vahid qüvvəyə çevirmək Qərbdən gələn sifarişdir.

Xərclədikləri milyonlar qarşısında heç nəyə nail ola bilməyən Qərb dairələri, pullarının batmaması üçün indi də bu üsula əl atmağa və nəyəsə nail olmağa çalışırlar. Sadəcə, həmin dairələr Azərbaycanda gedən prosesləri görməyi və ya görüb də anlamağı bacarmırlar. Sizi əmin edirəm ki, onların indiki birləşmək bağırtıları da ağalarının pulu Azərbaycana gəlib çıxana qədərdir. Bu dəfə pul üstündə aralarında elə qırğın düşəcək ki, heç Qərbdəki ağaları da gəlsə, onları sakitləşdirə bilməyəcəklər. Bilirsiniz, müxalifət o zaman güclü olar ki, onları xalqın, heç olmasa, beş-on faizi dəstəkləsin. Bizim başabəla müxalifətimizin isə, özlərindən və papkalarından başqa dəstəkləyənləri yoxdur. Bir-iki min adama Qərbdən gələn pulları paylayıb, meydana toplamaqla qüvvə nümayiş etdirmək hələ müxalifətin gücünün olduğu anlamına gəlmir. Xalq arasında nüfuz qazanmaq, xalqın istəyini qazanmaq deyil, Qərbdəki ağalarının sevgisini qazanmaq naminə göstərilən fəaliyyət, təbii ki, sonda məğlubiyyətə məhkumdur. Bir azca gözləyək, tezliklə onların pul bölgüsündəki qırğınlarını müşahidə edəcəyik. Təəssüflənirəm ki, hələ də bizim müxalifətimiz bu səviyyədən, bir addım da olsun, önə gedə bilmir. Çünki müxaliflər arasında pula hərislik var.

**GÜLYANƏ**

# Bakı sakinindən yarım kiloqramdan çox heroin götürülüb

Nəsimi Rayon Polis İdarəsinin 19-cu polis şöbəsi əməkdaşları əldə edilmiş məlumat əsasında əməliyyat-axtarış tədbirləri keçirərək üzərində qanunsuz narkotik maddə daşımaqda şübhəli bilinən Bakı şəhər sakini M.Babazadə saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi axtarış zamanı ondan çəkisi 518 qramdan artıq heroin aşkarlanaraq götürülüb. Faktla bağlı cinayət işi başlanılıb, istintaq aparılır.

# Suyun, külək və havanın himayəçisi

*Xıdır Nəbi mərasimi təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi kimi təbii proseslərlə müşayiət edilir*



***Hər bir xalqın özünəməxsus bayramları vardır. Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsi olan bayramlar xalqımızın həyatında mühüm yer tutur. Qədim tarixi özündə ehtiva edən Azərbaycan xalqının məişətində mövcud olan bir çox bayramların başlanğıcı eramızdan əvvəlki minilliklərə söykənir. Bildiyimiz kimi, bayramlar öz məzmununa görə dini və dünyəvi bayramlara bölünür. Azərbaycanda Ramazan bayramı, Qurban bayramı kimi dini bayramlarla yanaşı, dünya xalqları ilə bərabər qeyd etdiyi bayramlara da təsadüf olunur.***

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram Azərbaycanda Xızır Nəbi bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır. Bu bayram Azərbaycanın, demək olar ki, bütün bölgələrində keçirilir. Naxçıvan, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarında təntənəli şəkildə qeyd olunub. Rus tədqiqatçısı T.F.Aristova Laçın, Qubadlı və Zəngilan rayonlarında bu bayramın qeyd edilməsi prosesləri haqqında maraqlı məlumat verir. Qeyd edir ki, qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda qovurğa qovurar, çay və bulaq kənarında müxtəlif rənglərlə bir neçə yumurta qoyaraq niyyət edirdilər. Ertəsi gün yumurtalara baxırdılar. Əgər yumurta qırmızı rəngə boyanmışdırsa yaxşı, qara boyanırdısa pis əlamətə yozurdular.

Xıdır İlyas, adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Qeyd edim ki, Xızır Nəbi bayramı Novruz bayramından əvvəl keçirilir. Bu bayramın keçirilməsi kiçik çilləyə təsadüf edilir. Bayramın tarixi günü ilə bağlı tədqiqatçılar və folklorşünas alimlər müxtəlif fikirlər irəli sürürlər. Bəzi mənbələrdə həmin bayramın kiçik çillənin qurtarmasına 2-5 gün qalmış, bəzilərində həmin mərasimin kiçik çillənin onuncu günündə, bəzilərində isə böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün ərzində keçirildiyinə təsadüf edirik. Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə isə "Xıdır İlyas" mərasiminin kiçik çillənin qurtardığı son üç gündə - təxminən fevralın 25-28-i arasında keçirildiyini göstərir. Başqa bir mənbədə isə Xıdır Nəbi bayramının fevralın 12-dən 20-dək keçirildiyi qeyd olunur.

Xoşbəxtlik, ruzi, arzuların simvolu kimi qeyd olunan bayramın kiçik çillənin çıxması münasibətilə keçirilməsi həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır.

## XIDIR NƏBİNİN KÜSÜB GETMƏSİ RUZİ-BƏRƏKƏTİN YOX OLMASINA SƏBƏB OLAR

Xıdır İlyas mərasiminə xüsusi hazırlaşırdılar. Xalq arasında belə inam vardır ki, əgər Xıdır Nəbi Boz atında gələrkən, evlərdə bayram əhval-ruhiyyəsi görməzsə, küsüb gedirdi. Xıdırın küsüb getməsi isə ruzi-bərəkətin yox olmasına səbəb olar, baharın gəlməsi gecikər. Buna görə də, hələ kiçik çillənin birinci günündən başlayaraq, bayram tədarükü görülürdü.

Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp və xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsuz kömbə bişirilib, öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

*Xıdır Nəbi, xan İlyas,*
*Açdı çiçək, gəldi yaz.*
*Mən Xıdırın quluyam,*
*Boz atının çuluyam.*

Bayramın üçüncü günü cütcü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidəcəyi, odla yanaşı, günəş və suyun adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şeirlər qoşulardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdilər. Onlara "Xıdırçı" deyərmişlər. Xıdırçılar hava işıqlanmazdan əvvəl, əllərində şam Xızırın dalınca gedər və nəğmələr oxuyardılar.

## AZƏRBAYCAN FOLKLORUNDA XIDIR NƏBİ İLƏ BAĞLI İNAMLAR

Bayramın atributu isə qovrulmuş buğda və qovuddur. Bundan başqa, digər paxlalı bitkilər, çərəz də mütləq süfrəyə qoyulmalıdır. Xəşil də ki, öz qaydası ilə. Ümumiyyətlə, qışda keçirilən bayramların hamısında bu xörək növü hazırlanır. Bayramda daha çox sevinən uşaqlardır. Xıdır Nəbi günü, Novruzda olduğu kimi, uşaqlar qapı-qapı gəzib papaq atırlar. Axşam şər qarışanda isə, cavanlar və uşaqlar dəstələnib evləri qapı-qapı gəzərək, "Xıdır" nəğməsini oxuyar və bayram payı yığardılar. Hansı qapıdan içəri girsələr, əvvəlcə dəstədən bir adam irəli çıxıb avazla oxuyardılar:

*Mən Xıdırın quluyam,*
*Göy atının çuluyam.*
*Ağzının arpasıyam*
*Ayağının nalıyam.*

Toplanan pay isə bərabər şəkildə bölünürdü. Bundan başqa, həmin gün yükün altına qovud qoyarlar. Xalq inanclarına görə, əfsanəvi Xızır Peyğəmbər gəlib bu qovuda toxunarsa, həmin il o evdə ruzi-bərəkət olar. Bunu bilmək üçünsə ev sahibi səhər ertədən qovudun üzərində Xızırın atının izini axtarır. Hər hansı bir işarə varsa, deməli, niyyəti baş tutub.

Azərbaycan folklorunda Xızırla bağlı inamlar da sayca üstünlük təşkil edir. "Xıdır payı"ndan ertəsi günü yağla kömbə bişirər, qovut çəkilər və dəstənin üzvləri arasında bölünərdi. "Xıdır Nəbi" bayramında yumurta döyüşdürülürdü. Hansı yumurta sınsa, sahibi uduzmuş hesab olunurdu. Bu bayramda qapıpusma mərasimi də keçirilirdi. Qulaqları barmaqla yumaraq niyyət tutur və "filan evə qapı pusmağa gedirəm"- deyilərdi. Həmin qapıya çatanda qulağı açar, niyyəti eşitdiyi ilk sözlə sınayardılar. Qovurğanı məcməyiyə yayıb, boş otaqda səhərədək saxlayardılar. Əgər səhər qovurğanın üzərində əl izləri görünsəydi, deməli, Xıdır İlyas o evə gəlmişdi, həmin il ailə üçün xoşbəxt il olardı.

Bütün bunlar göstərir ki, Xıdır Nəbi mərasimi xalq bayramı olmaqla yanaşı, həm də mifik bir obrazın - Xıdır İlyasın mövcudluğunu, mərasimlərdə şəxsən iştirak etdiyi barədə fikri yaddaşlarda möhkəmləndirir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Cəmil Həsənlinin trolları Əli Kərimlinin üzünə durdular

*Məhkəmədə açıqlanan ilkin məlumatlara görə, Əli Kərimli dilənçilik yolu ilə Rusiyadan 1,8 milyon ABŞ dollar əldə edib*

***Müxalifətin yaramaz xislətli satqın zümrəsi ictimai rəyin onlara olan mənfi münasibətinin genişləndiyini şüurlu şəkildə dərk etdikcə, xarici ağalarının qucağına daha sıx şəkildə sığınmağa çalışırlar. Baxmayaraq ki, “Soros” kimi qərəzli təşkilatlar istisna olmaqla, digər fondlar və qüvvələrin mövqelərində dəyişiklik nəzərdiqqəti cəlb edir. Yəni sonuncular yarıtmaz və naşı müxalif ünsürlərlə əməkdaşlıqdan imtina kursu götürürlər.***



Bu isə, dağıdıcı müxalifət üçün intihara bərabərdir. Qısaca desək, siyasətdən getmələri deməkdir. Çünki sosial baza olmasa da, maliyyə imkanları hesabına siyasətdə sürünmək mümkündür. Ancaq maliyyə vəsaiti olamdığı halda, siyasətdə qalmaq, boş-boşuna meydanda veyillənmək deməkdir. İddialı və təkəbbürlü müxalifət yetkililəri isə, adlarının avaralar sırasında əks olunmasını istəmirlər. Onlar mətbuatda görünmək, meydanlarda qışqırmaq iddiasındadırlar. “Milli Şura”nın sədri Cəmil Həsənlinin 2018-ci ildə 7 dəfə Avropaya və ABŞ-a üz tutması, üzləşdikləri maliyyə problemlərini aradan qaldırmağa hesablanmışdı. Ancaq səfərlər nəticəsiz qalıb.

## Məhkəmədə şahidlər Əli Kərimliyə pul göndərdiklərini etiraf etdilər

Xarici ölkələrdən, əli ətəyindən uzun qayıdan C.Həsənli, artıq acı taleyi ilə barışaraq, demək olar ki, “Milli Şura” ilə əlaqələrini kəsib. Hətta bəlli olduğu kimi, C.Həsənli rüsvayçılıqla nəticələnən 19 yanvar mitinqinə qatılmaqdan imtina etdi. Bəhanə də onu göstərdi ki, guya xarici səfərdədir. Halbuki mitinqin keçirildiyi saatlarda, artıq C.Həsənli xarici turnesini başa vurub, Bakıya qayıtmışdı. M.Ə.Rəsulzadənin abidəsi önündə keçirilən yığıncağa da C.Həsənli könülsüz olaraq qatılsa da, danışmaqdan, fikir bildirməkdən imtina etdi. Bütün bunlar C.Həsənli ilə Ə.Kərimli arasında ciddi ixtilafların yaşandığını göstərir. Həm də, təsdiq edilir ki, C.Həsənli Ə.Kərimlinin bəd əməllərinə şərik olmaq istəmir. Elə Ə.Kərimlinin əmisi oğlu, “Azərbaycan fermeri” qəzetinin baş redaktoru Nuhəli Kərimov da o fikirdədir ki, əmisi oğlu dövlət və milli maraqlara zidd siyasət yürütdüyündən və xaricə satılmaqla daha çox maliyyə vəsaiti əldə etməyə çalışdığından, ondan nəinki qohum-əqrəba, eləcə də, siyasi əqidə dostları da imtina edirlər: “Əli Kərimli Avropadakı erməni diaspora rəhbərləri vasitəsi ilə Azərbaycanda qarışıqlıq yaratmağa çalışır. Mitinqlər də, sifariş əsasında, erməni dostlarının istəyinə uyğun keçirilir. Fikir versəniz, görərsiniz ki, mitinqlərdə hər cür məsələdən danışılsa da, Qarabağdan, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımlardan bir kəlmə də olsun danışılmır. Çünki erməni lobbisi belə istəyir”.

N.Kərimovun sözlərinə görə, dəfələrlə nəslin ağsaqqalı olaraq, Ə.Kərimliyə dövlətə qarşı şər və böhtanlarından əl çəkmək barədə xəbər göndərsə də, nəticəsi olmayıb: “Maddi və mənəvi baxımından Corc Sorosdan və Sorosun həmfikir olduğu erməni təşkilatlarından asılı olduğundan ağsaqqal sözünü, el məsləhətini eşitməyib. Bəd əməlini davam etdirir. Biz onu ifşa edəcəyik, imkan verməyəcəyik ki, pula görə, nəslimizin adını batırsın, bizə ləkə gətirsin”.

Ə.Kərimli, Avropadakı bəzi maraqlı dairələrdən maliyyə yardımları almaqla kifayətlənməyib, Rusiyadakı azərbaycanlılara əl açıb, onlardan da pul almaqdan çəkinmir. Bu, hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən məhkəmə prosesində də, sübuta yetirilməkdədir. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən məhkəmə prosesində Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov şahid qismində dindirilərkən bildiriblər ki, onlar Ə.Kərimliyə Rusiyadan maliyyə vəsaitinin çatdırılmasında iştirak ediblər. İfadələrdən məlum olur ki, Ə.Kərimlinin adamları Rusiyada yaşayan azərbaycanlılarla görüşərək, onlardan Ə.Kərimliyə maddi yardımlar göndərmələrini xahiş ediblər. Cavanşir Abuşov ifadəsində bildirib ki, 2018-ci ilin iyununda Moskvada yerləşən “Skarabey” bazarında işləyən azərbaycanlılardan ona məlum olub ki, Orxan Zeynalova köməklik adı ilə verilmiş hesaba toplanan pullar, əslində, Azərbaycan Xalq Cəbhəsi Partiyasının Azərbaycan ərazisində mitinq və toplantıların maliyyələşdirilməsi, partiya sədrinə maddi dəstək göstərilməsi məqsədilə toplanılıb. Eşidib ki, Rusiyada azərbaycanlılardan nağd və bank vasitəsilə bu məqsədlə pullar toplanılıb və qanunsuz yolla Azərbaycana göndərilib. AXCP-dəki adının açıqlanmasını istəməyən mənbənin “Səs”ə verdiyi məlumata görə, Ə.Kərimlinin Rusiyadakı müəyyən qüvvələrdən, eləcə də, sadə azərbaycanlılardan pul alması yeni məlumat deyil: “Ə.Kərimli son 5 ildə Rusiyadan, demək olar ki, hər ay pul alıb. Onun gizli yollarla əldə etdiyi vəsaitin həcmi 1, 8 milyon ABŞ dollarıdır. Yəqin ki, hüquq-mühafizə orqanları bu məsələyə də aydınlıq gətirəcəklər”. N.Kərimov deyir ki, Ə.Kərimlinin məqsədi siyasətdə nəticə əldə etmək deyil, siyasət adı altında pul qazanmaqdır: “Ə.Kərimlinin tay-tuşları, yaşıdları kənddə pambıq əkir, bostan məhsulları yetişdirir, qoyun-quzu saxlayırlar. Ə.Kərimli isə əziyyətsiz mala-mülkə sahib olmağa çalışır. Bunun adı siyasət deyil, tüfeylilikdir. Yaxşı olardı ki, hüquq-mühafizə orqanları bu tüfeyliyə qarşı ciddi tədbirlər görsün. Biz Kərimli nəsli Bakıya gedib, onu kəndə gətirməyə çalışmışıq. Amma hər dəfə o, qaçıb gizlənib. Bu səbəbdən də, onu tutaraq kəndə gətirməyimiz problemə çevrilib”.

N.Kərimlinin sözlərinə görə, hüquq-mühafizə orqanları Ə.Kərimlini tutub, bizə təhvil versələr, biz onu kəndə aparıb, cəzalandıra bilərik: “Eşitmişik ki, Hollandiyada erməni iş adamı var - Vardan Akopyan, Ə.Kərimli onunla dostluq edir. Nədi-nədi, bu tüfeyliyə o erməni dığası hər üçdörd aydan bir, 200-250 min dollar verir. Həmin pullar hesabına da Ə.Kərimli Bakıda mitinqlər yolu ilə qarışıqlıq yaratmağa çalışır”.

## Zərərçəkənlər Əli Kərimli haqqında yeni faktlar açıqlamağa hazırlaşırlar

Bir sözlə, baş verənlərə və məhkəmədə açıqlanan şahid ifadələrinə, eləcə də əmisi oğlunun fikirlərinə əsaslanaraq, demək olar ki, "Yurd" şefini yaxın günlərdə üzücü sürprizlər gözləyir. Xüsusi ilə də, Avropada məskunlaşan “söyüş qrupu”nun üzvləri hesab olunan Məhəmməd Mirzəli ilə Tural Sadıqlının bir-birini ayrılan maliyyə vəsaitlərini mənimsəməkdə günahlandırmaları və bunun ardınca, bu ifşaedici məlumatların yayılmasının müəllifinin Ə.Kərimlinin olduğunun üzə çıxması AXCP sədrinin vəziyyətini daha da ağırlaşdırıb. Əldə olunan informasiyalara istinadən, demək olar ki, istər Rusiyada, istərsə də Avropadakı Ə.Kərimlinin qərəzli təbliğatına aldanaraq, pullar ayıran şəxslər "Yurd" şefini ifşa edən yeni faktlarla çıxış edəcəklər. Məsəl var, “bəla gələndə, batmanla gələr”. Ə.Kərimli üçün bələ özünün əməllərinin nəticəsi olaraq gəlməkdədir. Çünki “Facebook” sosial şəbəkəsində, zorakılıq təbliğ edən, terrora çağırış olan saxta profillərin bağlanması barədə də qərar verilib. Bu isə, o deməkdir ki, kərimlilər, hacılılar sosial şəbəkələr üzərində saxta profillər açaraq terroru, zorakılığı təbliğ edə, insanları iğtişaşlara çağıra bilməyəcəklər.

Düzdür, Ə.Kərimlinin sosial şəbəkələrdə, eləcə də, rüsvayçılıqla nəticələnən aksiyalarda qaldırdığı hay-küy boş qazanı döyəcləməkdən başqa, bir şey deyil. Çünki cəmiyyət, onun simasına və sifətinə bələd olduğundan, apardığı təbliğatı da ciddi qəbul etmir. Özünə hörmət etməyə çalışan və siyasətçi adına iddia edən şəxs, o cümlədən, Ə.Kərimli bundan sonra abırına və həyasına qısılıb, əski mövqeyinə qayıdar. Təbii ki, əgər Ə.Kərimlidə, az da olsa, sadaladığım kriteriyalar varsa.

**İ.ƏLİYEV**

# “Avropa müxalifəti” də parçalandı

*Son hadisələr, məhz bu cür nəticəyə gəlməyə zəmin yaradır*

***Özlərini “siyasi mühacir” statusu ilə zorla cəmiyyətə sırımağa çalışan “Avropa müxalifəti”, demək olar ki, kökündən parçalanıb. Bunu anlamamaq heç də çətin deyil. Daha dəqiq desək, müxtəlif adlarda “tədbirlər” keçirən qruplar arasında ciddi fikir ayrılıqları və ziddiyyətlər yaşanır ki, onlardan biri də Məhəmməd Əmin Rəsulzadənin doğum gününə həsr edilmiş toplantıdır. Almaniyanın Ftankfurt şəhərində keçirilən toplantıya “AND”, “Müsavat AKM” və “DAS” təşkilatları qatılsalar da, əvvəlcədən anons edildiyi kimi, həmin toplantıya 500-600 deyil, 100 nəfərdən bir az artıq adam qatılıb. Bu isə, qrup maraqlarının Avropa küçələrinə də sirayət etdiyinin aşkar görüntüsüdür.***



### Qənimət Zahidə “qələt edirsən”i kim deyib?

Diqqətçəkən məsələ isə, AXCP funksioneri, “AND” təşkilatının rəhbəri Q.Zahidin müsavatçılara məxsus “Müsavat AKM”, eləcə də, “DAS” kimi təşkilatlarla qarşıdurmasıdır. Artıq bu barədə mətbuatda da məlumatlar gedib və bəlli olub ki, 26 yanvar 2019-cu il tarixində Almaniyanın Frankfurt şəhərində Məhəmməd Əmin Rəsulzadənin doğum günü adı altında “AND”, “Müsavat AKM” və “DAS” təşkilatlarının tədbiri olub. Q.Zahid isə, “Facebook” profilində tədbir barədə anons verərkən, təşkilatçı qismində, sadəcə, özünün həmsədri olduğu “AND”-ı göstərmişdi. Bundan sonra “Müsavat AKM”-in aparıcı funksionerlərindən olan Əli Quliyevə aid Q.Zahidin “qələt etdiyini” deyən səs yazısı yayılmışdı. Səs yazısında Q.Zahidin özünü əsas təşəbbüskar kimi təqdim etməsi, eləcə də, bu məsələdə AXCP sədri Əli Kərimlinin dəstək verdiyini iddia kimi irəli sürməsi müsavatçı “mühacirlərin” xoşlarına gəlməyib. Nəticədə, kəskin qarşıdurma yaşanıb və “Müsavat AKM” rəhbərliyi Q.Zahidin qələt etdiyini bildiriblər.

### Məqsəd birdir - Avropa küçələrindən qrant yığmaq

Maraqlı məqamlardan biri də budur ki, Q.Zahidə edilən “qələt edir” tənbehinin ardınca, onun İlham Həsənlə də telefon əlaqəsi saxlayaraq, üzr istədiyi bildirilir. Bu hadisələrdən sonra Q.Zahid “Facebook”da öz şəxsi profilində Frankfurt tədbirinə təşkilatçılıq etdiyi ilə bağlı yazdığı statusu silib.

Onu da, qeyd etmək yerinə düşərdi ki, M.Ə.Rəsulzadənin Novxanıdakı abidəsinin ziyarətində də, demək olar ki, eyni qarşıdurma yaşanmışdı. AXCP və Müsavat kimi partiyaların tərəfdarları sonradan “Facebook” vasitəsi ilə kimin daha çox adam apararmaları üstündə, sözün əsl mənasında, qırğına çıxıblar. Bu məsələnin istər ölkədə, istərsə də ölkədənkənar düşərgədaxili müzakirəyə çıxarılması isə, məhz belə qənaətə gəlməyə əsas verir ki, özlərinə “xalqın mücahidləri”, “demokratları”, yaxud daha hər hansı gülünc statusları yapışdıranlar, ümumiyyətlə, nə dövlət, nə də xalq barəsində düşünmürlər. Onların düşündükləri yalnız bir məsələdir - kimin mitinqlərə, tədbirlərə daha çox adam yığması və təbii ki, qrant yığmaq məsələləridir. Bütövlükdə isə, fakt budur ki, ölkədəki müxalifətlə yanaşı, Avropa çöllərinə səpələnərək, qrant yığmaqla məşğul olanlar, artıq çoxdan parçalanıblar.

**Rövşən RƏSULOV**

# Aida İmanquliyevanın elmi nailiyyətləri

***Uzaq Şərq düşüncə və inanc sistemlərindən Latso, Budda, Brahma kimi fikir öndərlərinin təlimlərinin bilicisi olan M.Nüaymə ədəbi irsinin müqayisəli tədqiqatını apara bilmək, ən azından həmin mütəfəkkirləri onun qədər bilməyi tələb edir. Bu baxımdan, Mixail Nüaymənin ədəbi-fəlsəfi irsini yuxarıda adlarını qeyd etdiyimiz ədib və mütəfəkkirlərlə müqayisəli şəkildə tədqiq etmək Aida xanımın, sadəcə, ərəb ədəbiyyatı mütəxəssisi kimi deyil, eyni zamanda, fərqli ədəbi və fəlsəfi cərəyanların da dərin bilicisi olduğunu göstərir.***

A.İmanquliyevanın bu sahədəki tədqiqatlarını yüksək qiymətləndirən görkəmli şərqşünas-alim, akademik Vasim Məmmədəliyevin sözləri ilə desək, "Aida İmanquliyeva məhcər ədəbiyyatının ən görkəmli nümayəndələri Cübran Xəlil Cübranın və Əmin ər-Reyhaninin daha çox Qərb romantizminin, Mixail Nüaymənin isə rus tənqidi realizminin təsirinə məruz qaldığını göstərmiş və bunun əsas səbəbini onların dünyagörüşü, düşdükləri mühit, ədəbi-bədii qayəsi və yaradıcılıq istiqamətləri ilə bağlamışdır.

Aida xanım "Qələmlər birliyi və Mixail Nüaymə" və "Yeni ərəb ədəbiyyatı korifeyləri" adlı əsərlərində bu müqayisəli elmi-tədqiqatı ortaya qoymuş, dünya tədqiqatçıları arasında ərəb məhcər ədəbiyyatının yüksək səviyyədə araşdırılmasına öncüllük etmişdir.

Ədəbiyyatda yenilik tərəfdarı olan Nüaymənin əsərlərində rus klassiklərinin təsir dairəsini müəyyən edən A.İmanquliyeva konkret misallar əsasında müqayisəli ədəbi çalışma aparmışdır. Məşhur rus tənqidçisi Belinskinin ədəbi-tənqidi görüşlərinin M.Nüaymənin ədəbi-tənqidi estetikasının formalaşmasındakı rolundan bəhs edən A.İmanquliyeva, məhz bunun sayəsində Nüaymənin klassik ərəb tənqidi düşüncə tərzinin xaricinə çıxaraq, ədəbiyyatın əsas vəzifəsinin nədən ibarət olduğuna açıqlıq gətirdiyini ifadə etmişdir. V.Belinski kimi, M.Nüaymənin də ədəbiyyatın mühüm sahəsi olan teatr əsərlərinin cəmiyyətin doğru istiqamətdə addım atmasında, teatr səhnəsi vasitəsilə həqiqətlərin olduğu kimi birbaşa tamaşaçıya təqdim olunmasının əhəmiyyətindən bəhs edərək, bu iki görkəmli ədib arasında paralellər aparan Aida xanım Nüaymənin ərəb cəmiyyəti içərisindəki tərbiyəvi və reformist rolunun Belinskinin rus cəmiyyəti içərisindəki rolundan az olmadığını vurğulamışdır.

Görkəmli ərəbşünas-alim məhcər ədəbiyyatçılarını rus ədəbiyyatçıları ilə müqayisə etməklə kifayətlənmir. O, eyni zamanda, Amerika yazıçılarının, xüsusilə, amerikan transsendentalistlərinin öncülü olan Emersonun məhcər ədəbi quruluşunun nümayəndələri üzərindəki təsirlərindən bəhs edir. Xüsusən də, M.Nüaymənin fəaliyyətinin üçüncü mərhələsində ədəbi yaradıcılığını transsendentalizmin təməl prinsipləri üzərində bina etdiyini, bundan sonrakı yaradıcılıq fəaliyyətində daha çox varlıq, varlığın mahiyyəti, ölüm kimi fəlsəfi mövzulardan bəhs edən əsərlər qələmə aldığını vurğulayır. Həqiqəti dərketmədə rasional ağıldan daha çox intuisiya yolu ilə qəlbi ön plana çəkən amerikan transsendentalistlərinin dünyagörüşləri ilə M.Nüaymənin bu çərçivədəki düşüncə forması arasında yaxınlıq var. Əslində, bu düşüncə tərzi, sadəcə, amerikan transsendentalistlərində mövcud deyil. Bunu qədim hind inanclarında, müxtəlif mistik cərəyanlarda və müsəlman sufi ənənəsində görmək mümkündür. Bu kimi reallıqları ön plana çəkən A.İmanquliyeva, çoxçeşidli mədəniyyət qaynaqlarından bəhrələnməsi ilə, müasir ərəb ədəbiyyatında iz qoyan M.Nüaymənin ədəbi yaradıcılığının fərqli mədəniyyətlərlə olan əlaqəsini üzə çıxarmışdır.

A.İmanquliyevanın müqayisəli elmi araşdırmalarından göründüyü kimi, o, sadəcə, tanınmış ərəbşünas kimi deyil, eyni zamanda, müxtəlif mədəniyyətlərin və fərqli ədəbi-fəlsəfi cərəyanların dərin bilicisi olaraq elm dünyasında öz dəst-xəttini qoymuş bir alimdir.

Şərq-Qərb təfəkküründə yaranan ədəbi-fəlsəfi düşüncə sistemlərini öyrənməklə Şərqin Qərbə, Qərbin Şərqə bəxş etdiyi dəyərlərdən danışan Aida xanım Şərqin Qərbə bəxş etdiyi tarixi ədəbi-fəlsəfi, ictimai-siyasi ənənələrdən, gerçəkliklərdən də ustalıqla söhbət açır və Şərqin qüdrətli şəxslərinin Avropaya bəxş etdiyi uğurları onlara xatırladırdı.

Şərqin və Qərbin elmi mərkəzlərini birləşdirən müştərək ideyalardan, ədəbi-fəlsəfi fikir sistemlərindən danışaraq, sübut edirdi ki, dünyanın siyasi mənzərəsini heç bir rejim dəyişə bilməz. Mühitin və quruluşun rəngini dəyişmək üçün düşüncə və təfəkkürdə yenilik etmək gərəkdir.

Mənəviyyatın, mənəvi dəyərlərin aşınmasının təbii fəlakətlərdən, müharibələrdən daha dəhşətli olduğunu faktlarla sübut edərək, Tanrı evinin - Dünyanın xilası naminə Şərqlə Qərbin öncə əməldə, ruhda və ədəbi-fəlsəfi baxışlarda birləşməsini zəruri sayırdı. Tanrının ona bəxş etdiyi istedadın, zahiri və batini kamilliyin, gözəlliyin işığını elmimizin üstünə salan Aida xanım əhatəli yaradıcılığı ilə "Ərəb filologiyası məsələləri", "Yaxın və Orta Şərq", "Sovet şərqşünaslığının problemləri və perspektivləri", "Şərqin problemləri: tarix və müasirlik", "Romantizmin problemləri və Şərq" adlı əsərləri və məqalələri ilə Şərqin təkcə ədəbi-fəlsəfi baxışlarına deyil, ictimai-siyasi quruluşuna və yaşam tərzinə də aydınlıq gətirdi.

Şərqin zəngin klassik ədəbiyyatından və ədəbi cərəyanlarından soraq verməklə yanaşı, o, ingilis romantiklərinin, Amerika transsendentalistlərinin və rus tənqidi realizminin müxtəlif inkişaf mərhələlərindən, onların müasir ərəb ədəbiyyatına təsirindən də ətraflı bəhs edib, fikir və mülahizələrini faktlarla əsaslandırdı.

Çoxşaxəli yaradıcılığı, əhatəli, dolğun əsərləri ilə Şərq-Qərb ədəbi-fəlsəfi cərəyanlarından, mədəniyyətlərindən məlumat verməklə, Aida xanım dünyada mövcud olan ədəbi, fəlsəfi, ictimai-siyasi cərəyanların, fikir və düşüncə sistemlərinin kökündə dayanan ideyalardan, onların axın istiqamətlərindən də söz açdı.

Sent Bövün bioqrafik, İppolit Tenin mədəni, Vilhelm Dilteyin mənəvi-tarixi, Yunqun analitik-psixoloji, Bartın strukturalizm metodlarından, Şərqin böyük filosofu, düşüncə sahibləri - Nizami Gəncəvinin İnsan sevgisindən, Məhəmməd Füzulinin İlahi eşqindən, İmadəddin Nəsiminin "Haqq mənəm, Haqq məndədir" ucalığından, rus klassiklərinin, Mirzə Fətəli Axundzadənin maarifçilik ideyalarından, Cəlil Məmmədquluzadənin realizmindən, Məhəmməd Hadinin romantizmindən keçərək, özünün bütöv Dünya Modelini yaradan professor Aida İmanquliyeva ictimai-fəlsəfi sistemlərin mövcud olduğu elm, mədəniyyət, mənəviyyat və düşüncə səmasında Ağlının və Məntiqinin ulduzu ilə parladı.

Aida xanım İmanquliyeva elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul idi. Bir vaxtlar təhsil aldığı Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəb filologiyasından mühazirələr oxuyurdu. Elə, məhz buna görə də, SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə Ona xarici Asiya və Afrika xalqları ədəbiyyatı ixtisası üzrə 1991-ci ilin mart ayında professor elmi rütbəsi verilmişdir. Aida İmanquliyevanın elmi, ictimai-siyasi fəaliyyətindən danışarkən, onun tərcüməçilik fəaliyyətini də unutmaq olmaz.

Məsələn, o, 70-ci illərdə universitetin şərqşünaslıq fakültəsinin ərəb dili müəllimi, filologiya elmləri namizədi M.Qarayevlə birlikdə "İnsan və quş" adlı hekayələr məcmuəsini çap etdirir. Bundan əlavə, Ərəb filologiyası şöbəsinin əməkdaşlarının tərcüməsində İraq yazıçılarının əsərlərindən ibarət bir kiçik antologiyanın tərcüməsində və çapında da Aida xanımın gərgin əməyini xüsusi qeyd etmək lazımdır. "Ağ günlərin sorağında" adlanan həmin məcmuədə Aida xanımın tərcüməsində İraq yazıçısı Mahmud əz-Zahirin "Boğulmuş hıçqırıqlar" adlı hekayəsi də öz əksini tapıb. Bunlardan əlavə, Aida xanım müxtəlif illərdə respublikanın nəşriyyat orqanları tərəfindən ərəb ədəbiyyatı ilə bağlı çap olunmuş neçə-neçə kitaba ön söz yazmış, neçə-neçə kitabın elmi redaktoru olmuşdur. Aida xanım İmanquliyeva çox zərif, kövrək bir insan, həddindən artıq nəvazişkar və diqqətli adam idi. O, yaxınlarından tez-tez xəbər tutan, onların işi ilə maraqlanan, müşküllərini həll etməyə çalışan dost idi. Gündəlik gərgin iş rejimi Aida xanımı xanımlıqdan məhrum edə bilməmişdi. O, hər şeydən əvvəl, öz ailəsini və həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ANA idi.

Onun cismani yoxluğunu 1992-ci ilin payızından - sentyabrın 19-dan hesablayırlar. Amma Aida xanımın ruhu onun Şərqlə Qərbin ortaq dəyərlərinin aynası olan ölümsüz əsərlərində yaşayır.

A.İmanquliyevanın müqayisəli elmi araşdırmalarından göründüyü kimi, o, sadəcə, tanınmış ərəbşünas kimi deyil, eyni zamanda, müxtəlif mədəniyyətlərin və fərqli ədəbi-fəlsəfi cərəyanların dərin bilicisi olaraq elm dünyasında öz dəst-xəttini qoymuş bir alimdir. Şərq-Qərb təfəkküründə yaranan ədəbi-fəlsəfi düşüncə sistemlərini öyrənməklə Şərqin Qərbə, Qərbin Şərqə bəxş etdiyi dəyərlərdən danışan Aida xanım Şərqin Qərbə bəxş etdiyi tarixi ədəbi-fəlsəfi, ictimai-siyasi ənənələrdən, gerçəkliklərdən də ustalıqla söhbət açır və Şərqin qüdrətli şəxslərinin Avropaya bəxş etdiyi uğurları onlara xatırladırdı

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 6 fevral


## Qışda niyə kökəlirik?

Qış aylarında kiçik bir çəki artımı orqanizmin soyumasına qarşı bioloji təsir göstərir. İnsan genetik olaraq soyuq havalarda çəki artımına meyillidir. Niyə yaz və yay fəsillərində biz xoşbəxt oluruq? Çünki bu mövsümlərdə həyat mənbəyi olan Günəş şüaları bizim orqanizmimizə, ilk növbədə beynimizə müsbət enerji ötürür. İstidən soyuğa keçid dövründə insan orqanlarında, həmçinin beynin bütün əlaqələndirici sis-



temlərində bir tənzimləmə baş verir. Günəş şüalarının çatışmazlığı insanların ruh sağlamlığına təsir göstərir. Belə ki, o, bioloji ritmlərin, bədəndə seratonin hormonunun azalması və melatonin hormonun balansının pozulması, yuxu və əhvali-ruhiyyənin pisləşməsinə gətirib çıxarır. Qışda Günəş şüaları kifayət qədər az olduğuna görə bəzi insanlar mövsümi dəyişikliyi hiss edib depressiyaya düşürlər. Bundan əlavə, qışda yaya nisbətən günün qısa, gecənin uzun olması ilə əlaqədar bədən kifayət qədər D vitamini almır, bu da immun sisteminin zəifləməsinə təsir göstərir. Bundan əlavə, havanın hərarəti endikcə bədənin soyuqla mübarizəsi üçün daha çox enerjiyə ehtiyacı olur, buna görə də qışda ilin digər dövrlərinə nisbətən çox qida qəbul edirik.

Bu barədə AZƏRTAC-a Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkim-cərrahı, bariatrik diyetoloq, tibb elmləri üzrə fəlsəfə doktoru Vəfa Paşazadə məlumat verib.

Sağlam qidalanma üzrə mütəxəssis bildirib ki, bir çox tədqiqatçıların fikrincə, fizioloji proseslərin mövsümi dəyişkənliyi gündəlik tezliyə bənzəyir, yəni bədənin vəziyyəti qışda və yayda gecə və gündüz kimidir. Yayla müqayisədə, qışda qan şəkərinin səviyyəsinin azalması, adenozintrifosfatın (ATP) miqdarının və xolestrolun artması, metabolizmin yavaşlaması çəki artımına səbəb olur.

Diyetoloq, həmçinin qışda çəki artımının qarşısını almaq üsullarından danışıb: "Yuxu, idman və təmiz hava həmişə insanlar üçün güc və sağlamlığın əsas mənbəyi olub. İlin soyuq mövsümündə bəzi məhsulların yüksək enerji potensialı olub onu bədənə ötürməsini, digərlərinin isə əksinə "enerji almaq" xüsusiyyətinə malik olduğunu bilmək lazımdır. Pəhrizə daxil edilməli olan ət və B4 vitamini ilə zəngin olan heyvan içalatı - qaraciyər, böyrək gərginlikdən əlavə, sinir hüceyrələrinin fəaliyyətini də yaxşılaşdırır. Orqanizmin gərginliyi bəzi mikroelementlərin miqdarından asılıdır. Məsələn, qaraciyərin və yumurtanın tərkibində olan mis beyin hüceyrələrinin və əzələlərin uzun müddət aktiv olması üçün vacibdir. Yaxşı enerji üçün də bədəndə sink və selen əhəmiyyətli bir tarazlıq daşıyır. Sink sərt pendirlər, xərçəng, krevet, qoz-fındıqlarda - xüsusən də püstə, günəbaxan tumlarında zəngindir. Selen brokkoli və dəniz məhsullarında daha çoxdur. Əzələ enerjisi birbaşa qırmızı ətlə qidalanmadan asılıdır. Toyuq ətindən fərqli olaraq, o, yüksək enerjiyə malikdir. Əlavə kalori qazanmamaq üçün əti soyutma və ya mətbəx sobasında bişmiş halda və çox göyərti ilə yemək lazımdır. Qış fəslinin əsas yeməyi isə şorbadır.

Əlbəttə ki, vitamin qəbulunu, əsas da B vitaminini unutmaq olmaz. Qəhvəyi düyü, yulaf, qarabaşaq, kəpək və buğda ununun B vitamini ilə zəngindir. Məhz onlar fol turşusu ilə birlikdə əzələ və sinir hüceyrələrinin yüksək fəaliyyətini təmin edir. Qidalanarkən təbii mövsümi məhsulları seçin. Kələm turşusu, sarımsaq C vitamini ilə zəngindir, çuğundur isə immunitet sistemi üçün bir növ "yanacaq" olan amin turşularından biri - qlutamin ehtiva edir. Buna ət və süd məhsullarını da aid etmək olar. İçərisində yağ yanma mexanizmini sürətləndirən və daha çox çəki verməyə kömək edən - yoğurt, qatıq, bərk pendir növləri kimi süd məhsullarının qida rasionuna daxil edilməsi tövsiyə olunandır. Elmi tədqiqatlar göstərir ki, bütün bunların tərkibi kalsium, fosfor və maqneziumdan ibarətdir. Ürəkdamar xəstəliyi riskini azaltmaq üçün pəhrizə tam taxıl çörəyi, yulaf əzməsi, kəpək, meyvə və tərəvəz daxil edilməlidir".

"Adətən yaz-yay aylarında çox su içirik, amma qışda su tələbatımızı unuduruq. Bir çox hallarda, insan sanki qida qəbul etmək istəyir, əslində bu, susuzluq olur və tez-tez aclıq hissi ilə qarışdırılır. Su metabolik proseslərdə iştirak edir və vücudumuzun ayrılmaz tərkib hissəsidir. Gündə 2 -2,5 litr su qəbul edin. Bu məsləhətlərə riayət edənləri qışda çəki artımı problemi narahat etməyəcək", - deyə mütəxəssis diqqətə çatdırıb.

## Azad Rəhimov: "Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır"



"Formula 1 dəyişən və inkişaf edən idman növüdür və yarışın təşkil olunduğu ölkələr üçün yeni imkanlar açır. İdmanın bu növü ev sahibi ölkələrin iqtisadiyyatına müsbət təsir göstərir. Bütün bunları nəzərə alaraq, qarşılıq razılıq əsasında Azərbaycan Qran-Prisinin 2023-cü ilədək keçirilməsi ilə bağlı müqavilə imzaladıq". SİA-nın məlumatına görə, bu sözləri fevralın 5-də Bakıda təşkil olunan mətbuat konfransında Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri deyib.

O bildirib ki, yaxın vaxtlarda Formula 1-də inqilabi dəyişikliklər gözlənilmir. Əsas dəyişiklik 2021-ci ilə nəzərdə tutulub. Belə ki, bolidlərin aerodinamikası artırılacaq. Bu da yarışlara həyəcan qatacaq və azarkeşlərin idmanın bu növünə marağını daha da artıracaq.

"Şəhər traslarında təşkil olunan Formula 1 yarışları daha baxımlı olur. Bakı şəhər halqası ilə yanaşı, Sinqapur, Monako və Montsa Qran-priləri də unikallığı ilə seçilir. 2020-ci ildə şəhər traslarında təşkil olunan yarışlara daha biri - Vyetnam Qran-Prisi də əlavə olunacaq. Bu tipli yarışlarda şəhərin enerjisi və Formula 1 sevərlərin azarkeşliyi yarışla vəhdət təşkil edir", - deyə Ç.Keri əlavə edib.

İmzalanmış yeni müqavilənin əhəmiyyətini yüksək qiymətləndirən gənclər və idman naziri Azad Rəhimov qeyd edib ki, Azərbaycan Qran-Prisi yerli şirkətlər üçün yeni imkanlar açır. Onların beynəlxalq arenaya inteqrasiyası üçün bu yarış çox əlverişlidir. Dənizkənarı Milli Parkda yaradılan "F1 Şəhərciyi"ndə şirkətlər öz stendlərini yerləşdirir, məhsullarını təbliğ edir, həmçinin yeni əməkdaşlıqların qurulması istiqamətində addımlar atırlar. "Gələcəkdə Azərbaycan pilotlarının da Formula 1-də iştirak etmələri mümkündür. Hazırda ölkəmizdə idmançıların yetişməsi üçün kartinq fəaliyyət göstərir. Həmçinin Azərbaycan Avtomobil Federasiyası da bu istiqamətdə işlər aparır", - deyə nazir diqqətə çatdırıb.

## Joze Mourinyoya 3,3 milyon avro cərimə kəsildi!



Portuqaliyalı futbol məşqçisi Joze Mourinyo İspaniyada vergidən yayındığına görə 3,3 milyon avro cərimə edilib. TASS agentliyi xəbər verir ki, portuqaliyalı mütəxəssis 2011-ci ildə 1,6 milyon, 2012-ci ildə isə 1,7 milyon olmaqla ümumilikdə 3,3 milyon avro vergi ödəməkdən boyun qaçırıb.

Qeyd edək ki, 2018-ci ilin iyulunda J.Mourinyo vergi orqanlarına 400 min avro ödəyib. O, məşqçilik karyerası ərzində Portuqaliyanın "Portu", İtaliyanın "İnter", İngiltərənin "Çelsi" və "Mançester Yunayted", həmçinin İspaniyanın "Real" komandalarını çalışdırıb.



## Marko Reus Dortmund şəhərinin ən yaxşı idmançısı seçilib

Almaniyanın "Borussiya" futbol klubunun yarımmüdafiəçisi Marko Reus 2018-ci ildə Dortmund şəhərinin ən yaxşı idmançısı seçilib. Belə ki, 29 yaşlı almaniyalı yarımmüdafiəçi "Ruhr Nachrichten" qəzetinin oxucuları və "Radio 91.2" radiosunun dinləyiciləri arasında keçirilən sorğuda birinci olub. Reus 11 min 300 nəfərin iştirak etdiyi səsvermədə 51.9 faiz səs toplayıb. İkinci yerdə avarçəkmə üzrə sabiq Olimpiya çempionu Rixard Şmidt (25.1 faiz) qərarlaşıb. İlk üçlüyü isə atlet Mohamed Mohamedi (23 faiz) tamamlayıb.

Qeyd edək ki, yarımmüdafiəçi 2018-ci ildə Almaniya millisinin və Bundesliqasının ən yaxşı futbolçusu seçilib. O, cari mövsümdə Dortmund təmsilçisinin heyətində 24 oyunda 14 qol vurub. Almaniya millisində isə 37 oyunda 10 dəfə fərqlənə bilib.

## UEFA-dan növbəti yenilik - Səfər qolu qaydası ləğv olunur




UEFA Çempionlar Liqasında səfər qolu qaydasını ləğv etməyə hazırlaşır. Qol.az-ın Almaniyanın "Kicker" nəşrinə istinadən yaydığı xəbərə görə, məsələ qurumun İcraiyyə Komitəsinin sabah Romada keçiriləcək iclasında müzakirəyə çıxarılacaq və bu barədə yekun qərar qəbul olunacaq. Böyük ehtimalla, sözügedən qayda dəyişdiriləcək. Qeyd edək ki, Çempionlar Liqası da daxil olmaqla, bəzi turnirlərdə səfərdə vurulan qollar komandalar üçün üstünlük hesab edilir. Bu qayda bir sıra klubların narazılığı ilə qarşılanır. Bundan əvvəl İngiltərə kubokunda səfər qolu qaydası ləğv olunub. Beynəlxalq Futbol Assosiasiyaları Birliyi də ölkə federasiyalarına bu qaydadan imtinaya icazə verib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**